*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*
*Heydər ƏLİYEV*

ASCO

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

8 noyabr 2019-cu il № 85-88 (9367) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

## BU SAYIMIZDA


### "Bonus Siyasəti" uğurla tətbiq edilir



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də (ASCO) "Bonus Siyasəti" ilə bağlı tədbir keçirilib. ASCO əməkdaşlarının iştirakı ilə baş tutan tədbirdə çıxış edən şirkət sədrinin kommersiya, strateji inkişaf və innovasiyalar üzrə müavini Fərhad Quliyev bildirib ki, Gəmiçilik rəhbərliyinin daim diqqətdə saxladığı korporativ idarəetmə ilə bağlı davamlı işlər görülür, müxtəlif layihələr gerçəkləşdirilir.*

Səh. 2

### Beynəlxalq keyfiyyət standartlarının korporativ idarəetmədə tətbiqi strateji planlaşdırmanı asanlaşdırır



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri üçün "Dəniz sənayesində tətbiq olunan keyfiyyət standartlarına giriş" mövzusunda seminar keçirilib.***

Səh. 3

### Ətraf mühitə zərərin vurulmaması üçün zəruri qabaqlayıcı tədbirlər görülür



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) gəmilərdə, eləcə də sahil qurğularında formalaşan maye, bərk və qaz (emissiyalar) halında olan tullantıların müvafiq qaydada idarə edilməsi və onların dənizə, quruya və atmosferə təsirinin qarşısının alınmasını daim diqqətdə saxlayır. Çünki, ətraf mühitin qorunması "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) üçün əsas davamlı inkişaf meyarlarından biridir.*

Səh. 4

### Təlim-Tədris Mərkəzində əcnəbi tələbələr üçün seminar keçirilib



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasının tərkibində fəaliyyət göstərən Təlim-Tədris Mərkəzində xarici tələbələr üçün seminar keçirilib.***

Səh. 5

### "Süleyman Vəzirov" borudüzən gəmisinin uğurlarında heyətin hər bir üzvünün zəhmət payı var



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) unikallığına görə seçilən gəmiçilik şirkətlərindəndir. Donanmalarında müxtəlif təyinatlı gəmilərin mövcudluğu ASCO-nun dünya gəmiçilik şirkətləri sırasında layiqli yer tutmasına imkan yaradır.***

Səh. 6

### "Səbail" komandası 11 xalla dördüncü pillədə qərarlaşıb

*Noyabrın 2-də futbol üzrə Azərbaycan Premyer Liqasının 10-cu turunun növbəti oyunu keçirilib.*

Səh. 8




## "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 avqust tarixli 1638 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 avqust tarixli 1638 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 723; 2009, № 6, maddə 424, № 7, maddə 589; 2012, № 2, maddə 126; 2014, № 2, maddə 112, № 6, maddə 644; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 1, maddə 79, № 6, maddə 1321) 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

***"Komissiyanın sədri***

Şahin Mustafayev - Azərbaycan Respublikası Baş nazirinin müavini

***Komissiyanın üzvləri:***

Azərbaycan Respublikasının energetika naziri

Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası təhsil nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti



"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin Baş direktoru

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

Azərbaycan Respublikasının Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri."

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Rusiya Federasiyası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 noyabr 2019-cu il.***

## "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 fevral tarixli 1993 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 fevral tarixli 1993 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 101; 2014, № 4, maddələr 391, 401; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Komissiyasının tərkibi aşağıdakı redaksiyada verilsin:

***"Komissiyanın həmsədri***

Şahin Mustafayev - Azərbaycan Respublikası Baş nazirinin müavini

***Komissiyanın üzvləri:***

Azərbaycan Respublikasının energetika naziri

Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin Baş direktoru

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti

Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri."

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə İran İslam Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 noyabr 2019-cu il.***

## Üçrəngli bayrağımız müstəqil Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir

Əziz həmkarlar!

Qarşıdan bütün xalqımız üçün bir-birindən əlamətdar bayramlar gəlir. Sizi 9 noyabr - Dövlət Bayrağı Günü və 12 noyabr - Konstitusiya Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, sizə uzun ömür, möhkəm cansağlığı, səadət və müstəqil Azərbaycanımızın tərəqqisi naminə çətin və şərəfli işinizdə yeni-yeni uğurlar arzulayıram.

Hər xalqa müstəqil dövlət qurmaq və müstəqilliyini təcəssüm etdirən bayrağını göylərdə dalğalandırmaq səadəti nəsib olmur. Azərbaycan xalqı da belə səadətin sevincini yaşayan xalqlardandır. Üçrəngli bayrağımız bizə təkcə soykökümüzü xatırlatmır, dini inancımızı və müasirliyi təcəssüm etdirir, Odlar yurdunun qədimliyini göstərir, müstəqil Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir.

Milli suverenliyin simvolu olan üçrəngli bayrağımızın dövlət atributu kimi bərpası Ulu öndərimizin adı ilə bağlıdır. Üçrəngli bayrağımız 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada muxtar respublikanın dövlət bayrağı kimi qəbul olunub. 1991-ci il oktyabrın 18-də müvafiq Konstitusiya aktı ilə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edərkən, onun dövlət rəmzlərini, o cümlədən üçrəngli dövlət bayrağını da qəbul edib.

Bütün sahələrdə Ulu öndərin siyasətini layiqincə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin milli ideallara bağlılığı özünü üçrəngli bayrağımıza münasibətdə də qabarıq göstərir. Müvafiq fərman və sərəncamları ilə 9 noyabr - Dövlət Bayrağı Gününün təsis edilməsi də, Bakının ən münasib ərazisində Dövlət Bayrağı Meydanının, həmin meydanda Dövlət Bayrağı Muzeyinin yaradılması da milli atributlarımızı daim uca tutan ölkə başçımızın bayrağımıza sonsuz sevgisinin təcəssümüdür.

Bu gün milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi əks etdirən üçrəngli bayrağımızın dünyanın 180-dən artıq müstəqil dövlətinin bayraqları ilə bir sırada dalğalanmasından sonsuz iftixar hissi keçirdiyimiz kimi, hər bir müddəası xalqın iradəsini ifadə edən Əsas Qanunumuzla da haqlı olaraq fəxr edirik. Müstəqillik tariximizin ən mühüm hadisələrindən olan Konstitusiyamız Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaradan və onun inkişafına güclü təkan verən, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan edən bu sənəd həm də xalqımızın dünya birliyində layiqli yer tutmaq istəyini, sülhə, tərəqqiyə, bəşəriyyətin inkişafına öz töhfəsini bəxş etmək əzmini ifadə edir.

Əziz dənizçilər!

ASCO-nun müxtəlif təyinatlı gəmilərinin dor ağacında da müstəqilliyimizin, suverenliyimizin, istiqlaliyyətimizin rəmzi olan bayrağımızın dalğalanması harada üzməsindən asılı olmayaraq, gəmilərimizin müstəqil Azərbaycanımızın bir parçası olduğuna işarədir. Əminəm ki, bundan sonra da müqəddəs üçrəngli bayrağımızı yaxın-uzaq ölkələrin sularında böyük iftixarla dalğalandıracaq, yük daşınmasında, Xəzərdə neft və qaz istehsalında yüksək dəniz nəqliyyatı xidmətləri göstərilməsində çiyninizə düşən vəzifələri layiqincə yerinə yetirəcəksiniz.

Bayraq həm də dövlətimizin, bütövlükdə, xalqımızın gələcək yolunu müəyyənləşdirən bələdçidir. Bu gün qəlbi Vətən sevgisi ilə döyünən hər bir azərbaycanlının ən böyük arzusu Dövlət bayrağımızın Azərbaycanın işğal altında olan torpaqlarında dalğalandığını görməkdir. Möhtərəm Prezidentimizin böyük məharətlə həyata keçirdiyi uğurlu siyasət, regionun lider dövlətinə çevrilən ölkəmizin bütün dünyanı heyran qoyan iqtisadi tərəqqisi, gündən-günə möhkəmlənən ordumuzun torpaqlarımızı hər an işğaldan azad etmək qüdrətində olması bu ülvi arzumuzun da gerçəkləşəcəyinə bizdə qəti əminlik yaradır.

Bayramlarınız mübarək olsun!

**Rauf Vəliyev,**
***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri***

## 9 noyabr Dövlət Bayrağı Günüdür

## Hər rəngi bir məna daşıyan Bayrağım



***Sabah Azərbaycanda Dövlət Bayrağı Günüdür. 2009-cu il noyabrın 17-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Həmin il dekabrın 4-də isə Milli Məclis noyabrın 9-nu Dövlət Bayrağı Günü kimi rəsmiləşdirib.***

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq xalqımızın azadlıq məfkurəsinə, milli mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyini nümayiş etdirir.

*(Davamı 2-ci səhifədə)*

*(Əvvəli 1-ci səhifədə)*

## 9 noyabr Dövlət Bayrağı Günüdür

# Hər rəngi bir məna daşıyan Bayrağım

Azərbaycan Respublikasının dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olub. Həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiqlənib. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək, onu dövlət bayrağı elan edib.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən dövlət bayrağını bərpa edib. 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirilib.

Dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı,



irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir.

Qeyd edək ki, müstəqil Azərbaycanın dövlət bayrağındakı üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini təşkil edən "türkçülük, islamçılıq və müasirlik" formulunun müəllifi görkəmli Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadədir.

Bayraq - bir ölkəni, təşkilatı, quruluşu və ya birliyi işarələyən, əsasən parçadan olan, dövlət rəmzi olub, müharibələr, inqilablar, nümayişlər zamanı öndə, insanların başı üzərində aparılan, müxtəlif rəsmi təşkilatların binalarının qarşısında dirəyə asılan və həmin təşkilatı təmsil edən, Vətən uğrunda şəhid olanların qəbirləri üzərinə salınan dövlət atributudur. Bayrağın üzərindəki hər rəng və simvol bir özəl məna daşıyır.

Azərbaycan Respublikasının dövlət atributlarından, dövlətçilik rəmzlərindən biri onun Milli Bayrağı – Dövlət bayrağıdır. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyinin rəmzidir.

### Üçrəngli bayrağımızın simvolları

Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq göy, orta zolaq qırmızı, aşağı zolaq isə yaşıl rəngdədir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilib. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

**Mavi rəng** - Azərbaycan xalqının türk mənşəli olmasını bildirir, mavi rəng türkçülük ideyası ilə bağlıdır. Türklərin göy rəngə üstünlük verməsi ilə bağlı müxtəlif izahlar da mövcuddur. Orta əsrlərdə islam dinində olan türkdilli xalqların yaşadığı ərazilərdə saysız-hesabsız qədim abidələr də tikilib və bu abidələrin əksəriyyəti göy rəngdə olub. Bu baxımdan göy rəng, həm də simvolik məna daşıyır. Göy rəng XIII əsrdə Elxanilər dövrünün əzəmətini, onların zəfər yürüşlərini əks etdirirdi.

**Qırmızı rəng** - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə müasirləşməni, inkişafa istəyi ifadə edir. XVIII əsrin sonlarında Fransa Burjua inqilabından sonra kapitalizmin inkişafı ilə bağlı Avropa ölkələrində böyük irəliləyişlər baş verib. Həmin dövrdə proletariatın kapitalizm quruluşuna qarşı mübarizəsi olub. Bu illərdə qırmızı rəng Avropanın simvoluna çevrildi.

**Yaşıl rəng** – İslam sivilizasiyasına, islam dininə mənsubluğu ifadə edir.

Azərbaycan bayrağının üç rəngi: türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoludur.

Qırmızı rəngin üzərində ortada aypara və səkkizguşəli ulduzun təsviri verilib.

### Səkkizguşəli ulduzun və ayparanın açıqlaması

**Tarixçilərin bildirdiklərinə görə, Xalq Cümhuriyyəti tərəfindən üçrəngli bayraq dövlət bayrağı kimi qəbul olunanda orada rənglərin nəyi ehtiva etdiyi göstərilsə də, aypara və səkkizguşəli ulduzun mənaları açıqlanmayıb. Bayrağın üzərindəki aypara və səkkizguşəli ulduzun mənaları barədə müxtəlif fikirlər var.**

Aypara bir vaxtlar Bizans imperiyasının paytaxtı Konstantinopolun gerbi olub. Türklər 1453-cü ildə həmin şəhəri aldıqdan sonra həmin gerb Osmanlı İmperiyası tərəfindən islam dininin bir rəmzi kimi qəbul edilib və həmin dində olan başqa xalqlara da keçib. Bayrağın üzərindəki aypara türk xalqlarının simvoludur. Səkkizguşəli ulduzun mənasına gəlincə bu, "Azərbaycan" sözünün əski əlifbada yazılışı ilə bağlıdır. Belə ki, əski əlifbada "Azərbaycan" sözü səkkiz hərflə yazılır.

Tarixdə səkkizguşəli ulduzun mənası belə açıqlanır: türkçülük, islamçılıq, müasirlik, dövlətçilik, demokratiklik, bərabərlik, azərbaycançılıq və mədəniyyətlilikdir. Azərbaycan bayrağında ulduz Azərbaycan memarlıq üslubunda geniş istifadə olunub və səkkiz guşə-səkkiz türk xalqının simvoludur.

## 12 noyabr Azərbaycan Respublikasının Konstitusiya Günüdür

# Müstəqil Azərbaycanın Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunması dövlətin ali məqsədi kimi bəyan edilib

***Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 24 il ötür. Müstəqil Azərbaycanın ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilib. Dövlətin Əsas Qanunu 1995-ci il noyabrın 27-də qüvvəyə minib.***



1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü Konstitusiyasıdır. Azərbaycanın Konstitusiya quruluşunun tarixi SSRİ dövrünə təsadüf edir. Azərbaycanın ilk Konstitusiyası 1921-ci ilin mayın 19-da, SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası isə 1925-ci il martın 14-də qəbul olunmuşdu. 1978-ci ilin aprelin 21-də qəbul edilmiş son Konstitusiya da, əvvəlki konstitusiyalar kimi, SSRİ Konstitusiyasına uyğunlaşdırılmışdı.

Dövlət müstəqilliyinin bərpa olunduğu ilk illərdə ölkədə bütün sahələrdə yaşanan xaosdan, Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etmək üçün xalqın hakimiyyətə dəvət etdiyi ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə, cəsarətlə həyata keçirdiyi əsaslı islahatlar respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, qanunların aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğuna yol açan yeni milli Konstitusiyanın hazırlanmasına və qəbuluna şərait yaratdı. Ulu öndər Heydər Əliyev bu barədə danışarkən deyirdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü – ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".

1995-ci ilin mayında ulu öndər Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyası formalaşdırıldı. Komissiyanın hazırladığı bitkin, əhatəli Konstitusiya layihəsi 1995-ci ilin oktyabrında ümumxalq müzakirəsinə verildi. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsinə çıxarıldı. Referendumda seçicilərin 86 faizi iştirak etdi və onların 91,9 faizi Konstitusiyanın qəbul edilməsinin lehinə səs verdi. Əsas Qanun noyabrın 27-də hüquqi qüvvəyə mindi.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəd idi.

Keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycanın Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan etdi. Hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirdi. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoydu. Təsadüfi deyil ki, şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmin olunması, humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil edir. 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət Konstitusiyada insan hüquq və azadlıqlarına geniş yer verilməsi ölkəmizin demokratiya ideallarına sadiqliyinin göstəricisidir.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratdı və onun inkişafına güclü təkan verdi. Konstitusiya qəbul edilən gün - noyabrın 12-də respublika parlamentinə ilk dəfə çoxpartiyalı sistem əsasında demokratik seçkilər də keçirildi. İlk Konstitusiyanın milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, 1996-cı il 1 noyabr tarixli Fərmana əsasən hər il noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilməyə başlandı.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilərkən hüquqi dövlət quruculuğunun müasir meyillərinə istinad olunmuş, ölkəmizin hüquq sistemi üçün yeni bir təsisatın – konstitusiya ədalət mühakiməsi orqanının yaradılması nəzərdə tutulmuş, bu təsisatın dövlət hakimiyyəti sistemində yeri və rolu müəyyənləşdirilmişdi. Bu müddəaya əsasən, 1997-ci il oktyabrın 21-də "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 1998-ci il iyulun 14-də Milli Məclisin Qərarı ilə Konstitusiya Məhkəməsinin 7 hakimi təyin olundu. İyulun 18-də isə Ulu Öndər Heydər Əliyev Konstitusiya Məhkəməsinin müstəqilliyinin və hakimlərinin hüquqi statusunun təmin edilməsi barədə Fərman imzaladı. Bununla da Konstitusiya Məhkəməsi rəsmən fəaliyyətə başladı. Doqquz hakimdən ibarət bu qurum qanunların Konstitusiyaya uyğunluğunu yoxlamaqla, qanunlara şərh verməklə, prezident və parlament seçkilərinin nəticələrini təsdiqləməklə, hətta vətəndaşların birbaşa müraciəti əsasında müvafiq qərarlar qəbul etməklə bütövlükdə, Konstitusiyanın aliliyini qoruyur.

Ötən 24 ildə ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar Azərbaycan Konstitusiyasına bir neçə dəfə əhəmiyyətli dəyişikliklər və əlavələr edilib. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik olunub. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının daha da güclənməsindən, vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən, sosial dövlət prinsiplərini təsbit etmək imkanlarının daha da genişlənməsindən irəli gəlirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavələr və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsinə edilən 41 əlavə və dəyişiklik müxtəlif sahələri əhatə etməklə, ali dövlət hakimiyyəti, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquqları və azadlıqlarının daha səmərəli təmin edilməsinə, hüquq və azadlıqların müdafiəsində dövlət və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəlib.

Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyasına edilən əlavə və dəyişikliklər nəticəsində Əsas Qanunumuz daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb.

# "Bonus Siyasəti" uğurla tətbiq edilir

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də (ASCO) "Bonus Siyasəti" ilə bağlı tədbir keçirilib. ASCO əməkdaşlarının iştirakı ilə baş tutan tədbirdə çıxış edən şirkət sədrinin kommersiya, strateji inkişaf və innovasiyalar üzrə müavini Fərhad Quliyev bildirib ki, Gəmiçilik rəhbərliyinin daim diqqətdə saxladığı korporativ idarəetmə ilə bağlı davamlı işlər görülür, müxtəlif layihələr gerçəkləşdirilir.***



Qeyd olunub ki, mükafatlandırma korporativ idarəetmə sisteminin vacib elementlərindən biridir. Bu prinsipi əsas götürən ASCO 2017-ci ildən etibarən "Bonus Siyasəti"ni uğurla tətbiq edir.

Fərhad Quliyev qeyd edib ki, tətbiq olunan "Bonus Siyasəti" Azərbaycan Respublikası Prezidentinin 05.09.2016-cı il tarixli 2300 nömrəli "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 04.06.2019-cu il tarixli 257 nömrəli Qərarı ilə təsdiq edilmiş "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydaları"na uyğunlaşdırılıb. Tədbir zamanı "Bonus Siyasəti"nin tətbiqi sahəsi və Siyasətə olunan yeniliklər barədə məlumat verilib.

Eyni zamanda bildirilib ki, ASCO-nun "Bonus Siyasət"i dünyada tanınmış müstəqil audit şirkəti olan "Deloitte & Touche" tərəfindən nəzərdən keçirilib və müvafiq təklifləri nəzərə alınıb.

Daha sonra ASCO-nun İnsan Resurslarının İdarəedilməsi Departamentinin rəisi Sevda Məmmədova Gəmiçilikdə hal-hazırda tətbiq edilən xidməti fəaliyyətin qiymətləndirilməsi prosesi barədə məlumat verib və həmin prosesin avtomatlaşdırılmış yeni versiyasının istifadəsi qaydaları haqqında təqdimat edib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

# "China Railway Express" qatarı Mərmərə dənizinin altındakı tuneldən keçərək Çexiyanın paytaxtı Praqaya doğru hərəkət edəcək

***Çinin Sian şəhərindən yola düşən və Bakı-Tbilisi-Qars dəmir yolu ilə Ankaraya çatan "China Railway Express" yük qatarının noyabrın 6-da təntənəli şəkildə qarşılanma və buradan Avropaya yola salınma mərasimi keçirilib.***






42 konteynerdən ibarət "China Railway Express" blok qatarı İstanbul boğazından keçməklə polad magistrallar üzərində Avropaya hərəkət edən ilk yük qatarıdır.

Qatarın qarşılanma mərasimində Azərbaycan, Türkiyə, Çin, Qazaxıstan və Gürcüstanın rəsmi şəxsləri iştirak ediblər. Əvvəlcə əsas süjet xəttini Bakı-Tbilisi-Qars dəmir yolunun təşkil etdiyi film nümayiş olunub.

Azərbaycanın İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov, Türkiyənin Nəqliyyat və İnfrastruktur naziri Mehmet Cahit Turhan, Çin Xalq Respublikası Çin Kommunist Partiyasının Şensi vilayət komitəsinin katibi Xu Xepin və "Qazaxıstan Dəmir Yolları" Səhmdar Cəmiyyətinin sədri Sauat Minbayevin çıxışları dinlənilib.

Niyazi Səfərov qeyd edib ki, Azərbaycan ilk gündən Çinin müəllifi olduğu "Bir kəmər, bir yol" layihəsini dəstəkləyib. Prezident İlham Əliyevin 2015-ci ildə Çinə səfəri zamanı iki dost ölkə arasında əməkdaşlığa dair, o cümlədən "İpək Yolu İqtisadi Kəməri" ilə bağlı əhəmiyyətli qərarlar qəbul olunub.

Avropa ilə Asiya arasında illik ticarət dövriyyəsinin 21 trilyon ABŞ dolları təşkil etdiyini diqqətə çatdıran Mehmet Cahit Turhan deyib ki, Türkiyə, Azərbaycan və Gürcüstanın birgə təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Qars dəmir yolu yükdaşımada yeni mərhələnin əsasını qoyub.

Tədbirdə qədim "İpək Yolu" üzərində dəmir yolu şəbəkəsinin qurulması tarixi hadisə kimi dəyərləndirilib. Diqqətə çatdırılıb ki, "Bir kəmər, bir yol" strategiyası dünyada ən böyük daşımaçılıq şəbəkələri sırasında özünə layiqli yer tutur. Bakı-Tbilisi-Qars dəmir yolu bu şəbəkənin qurulmasında və şaxələnməsində açar rolunu oynayır.

Çıxışlardan sonra Türkiyə ilə Çin, eləcə də Azərbaycan, Türkiyə, Çin, Qazaxıstan və Gürcüstan arasında əməkdaşlığa dair sənədlər imzalanıb.

İmzalanma mərasimi başa çatandan sonra Sian-Ankara marşrutu ilə hərəkət edən blok qatarı perrona daxil olub. Təntənəli şəkildə qarşılanan qatar birbaşa İstanbul istiqamətində hərəkətə başlayıb. "China Railway Express" qatarı Mərmərə dənizinin altındakı tuneldən keçərək Çexiyanın paytaxtı Praqaya doğru hərəkət edəcək.

Xatırladaq ki, cari il iyulun 6-da Sian-Bakı blok qatarının Azərbaycanda təntənəli qarşılanma mərasimi olub. Sian-Ankara marşrutunda qatarın mənzil başına qrafik üzrə çatması Bakı-Tbilisi-Qars dəmir yolunun qazandığı növbəti uğurdur. Çin "Bir kəmər, bir yol" strategiyası ilə özünün dəmir yolu əlaqələrini sürətlə şaxələndirir. Bu strategiya Çin, Asiya, Yaxın Şərq və Avropanı bir-birinə birləşdirən böyük bir nəqliyyat, investisiya, enerji və ticarət şəbəkəsini formalaşdırmağı hədəfləyir. Çinin 2013-cü ildə irəli sürdüyü bu strategiya iki əsas inkişaf istiqamətini nəzərdə tutur: "İpək Yolu İqtisadi Kəməri" və "Dəniz İpək Yolu". Burada söhbət malların Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa daşınması üçün ticarət dəhlizinin yaradılmasından gedir.

***Sabir Şahtaxtı***

**Neft Daşları - 70**

# Bir vaxtlar "Yeddi gəmi adası" adlandırılan "Möcüzə-şəhər" - Neft Daşları

***70 il əvvəl Xəzərin bu ərazisində dənizin dibindən baş qaldırıb bir hissəsi suyun üzərində görünən qara daşlardan başqa heç nə yox idi. Bakı gəmi təmiri zavodlarında istifadədən silinmiş yeddi iritonnajlı gəmi gətirilərək qara daşların yanında basdırıldı.***

Qeyri-adi bir ada yarandı və o, Xəzərin fatehlərini fırtınalardan qoruyan sığınacağa, dənizin dərin qatlarına nüfuz etmək üçün istinad nöqtəsinə çevrildi. Beləliklə, "Qara daşlar" "Yeddi gəmi adası" adlandırıldı. Daha sonra bu yer ilk adlarını dəyişərək həmişəlik Neft Daşları kimi tanındı.

1949-cu ilin yazında burada ilk buruq quraşdırıldı. Həmin ilin yayında birinci kəşfiyyat quyusunun qazılmasına başlandı. Payızda isə quyu neft fontanı vurdu. Bu, dünyada dəniz nefti erasının başlanğıcı idi...



Sonrakı illərdə Neft Daşlarında tikinti işləri geniş vüsət aldı. 1951-ci ildən estakada və meydançaların tikintisinə start verildi. Kommunikasiya xətləri çəkildi, istehsal və sosial təyinatlı obyektlər inşa edildi.

1980-ci illərin əvvəllərində Neft Daşlarının görkəmi bax, belə idi - ağ-qara təsvirli şəkillərdəki kimi...

Dəniz şəhərinin əmək ahəngi yenə də eyni qaydada davam edir. Kilometrlərlə uzanan estakadalarda, onlarca estakadayanı meydançada və bunlardan bir qədər aralıda - dənizin qoynundakı dərin özüllərdə fədakar Azərbaycan neftçisi yenə də hünər göstərir.

Neft Daşları dünyada bənzəri olmayan şəhərdir. Son illərdə onun siması daha da dəyişib. Polad dayaqlar üstündə qərar tutan şəhərdə 5 və 9 mərtəbəli yataqxanaların, mədəniyyət evinin, muzeyin, tibb-sanitar hissəsinin və digər obyektlərin tikilməsi, bir qarış torpağı belə olmayan məkanda park salınması, gül-çiçək əkilməsi onun "Möcüzə-şəhər", "Dünyanın səkkizinci möcüzəsi", "Möcüzələr adası" adlandırılmasını əsaslandırır.

Bakıdan 100, Pirallahı adasından 50 və Çilov adasından 30 kilometr məsafənin ayırdığı neftçilər şəhərinə hər gün vertolyotlar eniş edir, gəmilər yan alır. Onlar Bakıdan gətirdikləri sərnişinləri iş başına çatdırır, əmək növbəsi sona yetənləri sahilə, ev-eşiyinə qaytarır.

Beləcə, bu fədakar insanlar 70 ildir istismar olunan, əslində köhnə yataq sayılan "Neft Daşları"nda ekstremal şəraitdə - dənizin sərt qoynunda əmək xariqələrini davam etdirirlər. Onlar dövlətin qarşıya qoyduğu yerli istehsalı artırmaq, köhnə yataqlarda hasilatı saxlamaq vəzifəsini şərəflə yerinə yetirirlər.





## Beynəlxalq keyfiyyət standartlarının korporativ idarəetmədə tətbiqi strateji planlaşdırmanı asanlaşdırır





***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri üçün "Dəniz sənayesində tətbiq olunan keyfiyyət standartlarına giriş" mövzusunda seminar keçirilib.***

İngilis dili bölməsinin birinci və ikinci kurslarından 40 tələbənin qatıldığı və iki saat davam edən seminarı kapitan Titos Giannakakis aparıb.

Seminar zamanı kapitan Titos Giannakakis tələbələrə nəqliyyat şirkəti üçün keyfiyyətin vacibliyi barədə məlumat verib. Bildirib ki, dəniz şirkətlərində keyfiyyət standartlarının tətbiqi ümumi təhlükəsizlik göstəricilərinin yaxşılaşmasına, müştəri məmnuniyyətinin artırıılmasına və resursların səmərəli idarəedilməsinə birbaşa təsir göstərən amillərdəndir.

Təlimçi onu da əlavə edib ki, beynəlxalq keyfiyyət standartlarının korporativ idarəetmədə tətbiqi strateji planlaşdırmanı asanlaşdırır.

Seminar interaktiv formada keçirilib, iştirakçıların fikirləri dinlənilib, sualları cavablandırılıb.

## "Şimal axını" qaz kəmərinin vaxtında istifadəyə verilməsi hələlik sual altındadır




***AFR-in Baltik dənizi sahillərində yerləşən Lubmin adlı kommunasında "Şimal axını" qaz kəmərinin ikinci növbəsinin kəsişmə zonası yerləşib. Qaz kəməri Avropanın qaz nəqliyyat sisteminə məhz burada qoşulmalıdır.***

Boruların artıq 87 faizi Baltik dənizinin dibi ilə çəkilib və magistralın bu ilin sonuna qədər işə salınması nəzərdə tutulub. Konsorsium nümayəndələri bu yaxınlarda bildiriblər ki, onlar qalan işləri vaxtında başa çatdırmağa ümid bəsləyirlər.

Lakin bu günlərdə boru kəmərini çəkənlər üçün xoşagəlməz hadisə baş verib: rəsmi Kopenhagen Danimarkanın ərazi sularında boru kəmərinin çəkilməsinə icazə verməyib. Odur ki, Rusiyadan Almaniyaya qaz kəmərinin vaxtında istifadəyə verilməsi hələlik sual altındadır. Konsorsium apelyasiya şikayəti verib və indi məsələ baxılması üçün Danimarka hökumətinə qaytarıla bilər.

Yeri gəlmişkən, qaz kəmərinin Almaniya hissəsinin dəniz və yerüstü sahələrində işlər başa çatmaq üzrədir və Almaniya Rusiyadan qaz qəbul etməyə hazırdır.

İndi iş Danimarkaya qalıb. Lakin bu ölkə cavab verməyə hələlik tələsmir. Kopenhagenin cavabı nə qədər uzadacağı isə hələlik məlum deyil.

***Vüqar Seyidov***

## Quldurların qaçırtdığı dənizçilərin arasında gəminin kapitanı da var

***Dəniz quldurları Qvineya körfəzində Norveçin "J.J. Ugland" kompaniyasına məxsus "MV Bonita" gəmisinin doqquz filippinli dənizçisini qaçırıblar.***



BBC radiostansiyasının məlumatına görə, insident Beninin Kotonu limanında baş verib. Gəmi limandan doqquz dəniz mili məsafəsində dayanarkən hücuma məruz qalıb. Qaçırılan dənizçilərin arasında gəminin kapitanı da var. Onların naməlum istiqamətdə aparıldığı bildirilir. Hadisə ilə bağlı təhqiqata başlanılıb.

Liberiyadan Kameruna qədər uzanan Qvineya körfəzi son illər dəniz quldurluğu səbəbindən dünya dənizçiliyi üçün ən təhlükəli yerlərdən birinə çevrilib.

## Çili Respublikasının müvəqqəti işlər vəkili Bakı Gəmiqayırma Zavodunu ziyarət edib

***Çili Respublikasının ölkəmizdəki müvəqqəti işlər vəkili cənab Gabriel Jara Maldonado və onu müşayiət edən qonaqlar "Bakı Gəmiqayırma Zavodu" MMC-ni (BGZ) ziyarət edib və zavodun rəhbərliyi ilə görüşüb. Görüş "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin dəstəyi və təşkilatçılığı ilə baş tutub.***



Yüksək səviyyəli qonağı salamlayan BGZ-nin baş meneceri İmanverdi Həsənov ziyarətinə görə cənab Gabriel Jaraya təşəkkürünü bildirib. İmanverdi Həsənov daha sonra ötən dövr ərzində zavodun həyata keçirdiyi və hazırda davam edən layihələrlə bağlı görülmüş işlər haqqında ətraflı məlumat verib.

Görüşdə həmçinin gəmi təmiri və inşasının inkişaf perspektivləri, Xəzəryanı ölkələrin bu prosesdəki rolu və s. məsələlər barədə qarşılıqlı fikir mübadiləsi aparılıb.

Sonda müvəqqəti işlər vəkili yüksək qonaqpərvəliyə və səmimi fikir mübadiləsinə görə BGZ-nin rəhbərliyinə təşəkkür edib, Çili Respublikasının gəmiqayırma və mühəndislik şirkətlərinin əməkdaşlıqda maraqlı olduğunu və həmçinin səfirlik tərəfindən bu kimi təşəbbüslərin dəstəkləndiyini bildirib.

## Aralıq dənizinə çatanadək həyatını itirən qaçqınlarla bağlı statistikada qaranlıq rəqəmlər çoxdur



***Avropaya yetişmək üçün Aralıq dənizi marşrutunu seçən qaçqınlar arasında hər il minlərlə insan həyatını itirir. Lakin Afrikada Aralıq dənizi sahilinədək marşrutlarda ölən insanların sayı dənizdə batanlardan azı iki dəfə çoxdur.***

Bu məlumatı BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) Aralıq dənizi və Liviya üzrə xüsusi nümayəndəsi Vinsent Koşetel mətbuata açıqlamasında bildirib.

Onun sözlərinə görə, nəqliyyat qəzaları, susuzluq və aclıq, müxtəlif xəstəliklər, soyğunçuların basqını və zorakılıq ölüm hallarının əsas səbəbləridir. Bununla belə, heç bir statistika aparılmadığına görə, ölənlərin sayı yalnız ehtimal oluna bilər.

Xüsusi nümayəndə bildirib ki, ölüm hallarının sayı barədə dəqiq məlumat olmasa da, istənilən halda bu faciə hesab edildiyindən daha böyükdür. Afrikanın tranzit ölkələrinə tez-tez səfər edən V.Koşelet səhralarda və səhrayanı ərazilərdə aşkarlanan naməlum insan cəsədlərinin də Avropaya can atan qaçqınlara aid olduğunu qeyd edib.

Beynəlxalq Miqrasiya Təşkilatının hesablamalarına görə, Aralıq dənizinə çatanadək həyatını itirən qaçqınlarla bağlı statistikada qaranlıq rəqəmlər var. 2014-cü ildən indiyədək 19005 nəfər Aralıq dənizində, 4463 nəfər isə dəniz sahilinə çatanadək Şimali Afrikada həlak olub. Lakin Aralıq dənizində baş verən qəzalar üzrə statistikanın daha dəqiq mənbələr aparıldığını nəzərə alaraq, quruda həlak olanların sayının qat-qat çox olduğu hesab olunur. Müxtəlif ölkələrdən qeyri-leqal şəkildə keçən qaçqınların bir hissəsinin harada hansı aqibətlə üzləşməsi rəsmi qurumlar üçün qaranlıq olaraq qalır.

## Avrasiyanın nəqliyyat xəritəsini yeniləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycanı tranzit daşımalar mərkəzinə çevirir

***Asiya və Avropanı birləşdirən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu 2 il əvvəl istifadəyə verilib.***

"Şərq-Qərb", "Şimal-Cənub" və "Cənub-Qərb" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan regionun tranzit imkanlarının genişləndirilməsində həlledici rol oynayır və bu, ölkəmizi mühüm nəqliyyat-logistika mərkəzinə çevirir. Nəqliyyat-logistika və tranzit potensialının inkişaf etdirilməsi Azərbaycanın prioritet məsələlərindən biridir. Ölkəmizdə inkişaf etmiş nəqliyyat infrastrukturu yaradılır, nəqliyyat kompleksi xidmətlərinin keyfiyyəti artırılır. Bu istiqamətdə Bakı-Tbilisi-Qars dəmir yolunun, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Abşeron Logistika Mərkəzi kimi layihələr artıq həyata keçirilib, "Şimal-Cənub", "Şərq-Qərb" və "Cənub-Qərb" beynəlxalq nəqliyyat dəhlizlərinin reallaşdırılması davam edir, bu dəhlizlər müxtəlif qitələrdə yerləşən müxtəlif ölkələri birləşdirir.

İnfrastruktur obyektlərinin yaradılması, multimodal logistika sistemlərinin təkmilləşdirilməsi, etibarlı və təhlükəsiz nəqliyyat sisteminin fəaliyyəti Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizlərinin inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Ona görə ki, nəqliyyat-logistika sistemlərinin inkişafı sayəsində daşımaların həcmini qat-qat artırmaq mümkün olur.

Bakı-Tbilisi-Qars qitələrarası daşımalar üçün geniş imkanlar açır. Çin ilə Avropa ölkələri arasında ən qısa marşrut olan bu dəmir yolunun yaratdığı əlverişli şərait bir çox ölkələri, xüsusilə Şərq ölkələrinin diqqətini cəlb edir.

### Asiya və Avropanı birləşdirən ən qısa və etibarlı dəmir yolu

Bütün region üçün strateji əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Qars dəmir yolunun təntənəli açılışı mərasimindən 2 il keçir. Bu nəqliyyat qovşağının açılışında Prezident İlham Əliyev, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və onun xanımı Əminə Ərdoğan, Qazaxıstan, Gürcüstan, Özbəkistan, habelə Tacikistan və Türkmənistanın rəhbər şəxsləri iştirak ediblər.





BTQ Asiya və Avropanın dəmir yol şəbəkələrinin birləşdirilməsini təmin edir. Bu, təkcə 3 ölkə arasında deyil, həm də Asiya ilə Avropa arasında ən qısa yoldur. BTQ yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox qısaltmağa imkan verir. Bakı-Tbilisi-Qars dəmir yolu Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır.

Bakı-Tbilisi-Qars dəmir yolu Çinin elan etdiyi, Azərbaycan da daxil olmaqla bir sıra ölkələrin dəstəklədiyi "Bir kəmər, bir yol" iqtisadi inkişaf strategiyasının tərkib hissəsinə çevrilir. Bu strategiya iki mühüm inkişaf istiqamətini əhatə edir: 60-dan çox ölkəni əhatə edən İpək Yolu iqtisadi kəməri və Dəniz İpək Yolu. İpək Yolunun uzunluğu 18 min kilometrdir. Söhbət şərqdən qərbə güzəştli şərtlərlə birbaşa malgöndərmələr üçün ticarət dəhlizi yaradılmasından gedir. Bakı-Tbilisi-Qars dəmir yolunu İpək Yolu iqtisadi kəmərinin tərkib hissəsi kimi nəzərdən keçirsək, onun başlıca vəzifəsi Çindən və Cənub-Şərqi Asiyanın digər ölkələrindən Avropaya yüklərin daşınmasıdır. İnamla deyə bilərik ki, bu dəmir yolu qitələrarası daşımalar üçün böyük imkanlar yaradır.

Avrasiyanın nəqliyyat xəritəsini yeniləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu regionda Azərbaycanın çox əhəmiyyətli təsir amili olmaqla onu tranzit daşımalar mərkəzinə çevirir. Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolunun təntənəli açılış mərasimindəki çıxışında deyib: "Bakı-Tbilisi-Qars dəmir yolu tarixi layihədir, strateji əhəmiyyətli layihədir. Bu yolun uzunluğu təxminən 850 kilometrdir, onun da 504 kilometri Azərbaycan ərazisindən keçir. Bakı-Tbilisi-Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, ondan sonrakı mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Bir sözlə, Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq. Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək. Bu yol sabitliyə və təhlükəsizliyə xidmət göstərəcək".

### Yükdaşımaların coğrafiyası genişlənir

Ötən il Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə 2867 TEU konteyner daşınıb. Bu ilin 8 ayında isə bu göstərici 2544 TEU konteyner olub. BTQ ilə ilk konteyner qatarı Qazaxıstanın Kokşetau şəhərindən Türkiyənin Mersin şəhərinə taxıl yüklənmiş 32 vaqon daşıyıb. Sonra Mersindən Azərbaycana içərisində 650 ton yük olan 32 konteyner göndərilib. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolu ilə hər həftə Türkiyə, Azərbaycan və Qazaxıstan arasında 3 reys yerinə yetirilir. Əsasən inşaat materialları, elektrik avadanlıqları, yuyucu vasitələr, taxıl, jmıx və digər məhsullar daşınır. BTQ ilə Rusiyadan Türkiyəyə taxıl daşınır.

Bu günlərdə SOCAR və "ADY Konteyner" Bakı-Tbilisi-Qars dəmir yolu ilə Türkmənistanın Marı zavodundan Türkiyəyə karbamid göndərilməsini təmin edib. Hazırda Çinin Sian şəhərindən də BTQ ilə yüklərin daşınmasına başlanılıb, Polşa və Özbəkistan da bu marşrutdan daha geniş istifadə etməkdə maraqlı olduğunu açıqlayıb. Özbəkistanın infrastrukturunun təkmilləşdirilməsi və 2018-2022-ci illərdə yükdaşımalarının xarici ticarət marşrutlarının şaxələndirilməsinə dair kompleks proqramda Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə nəzərdə tutulub. Bu ölkə Nəvai-Türkmənbaşı-Bakı-Tbilisi-Qars dəmir yolu nəqliyyat dəhlizinin istifadə edilməsində maraqlıdır. Həmin dəhliz Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan dəmir yollarının Türkiyənin nəqliyyat şəbəkəsi ilə birləşdirəcək. BTQ Türkiyənin Mersin limanı vasitəsilə Özbəkistanın Aralıq dənizinə çıxışını təmin edəcək.

### Multimodal daşımalar təmin olunur

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçün birbaşa yüktoplama məntəqəsi funksiyasını yerinə yetirir. Bu liman şimal, cənub, şərq və qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəmizə daxil olan yüklərin toplanmasını, onların BTQ üzrə Avropa istiqamətində və ya gəmilərlə şərq istiqamətində daşınmasını təmin edən səmərəli və davamlı logistika zəncirinin formalaşması üçün əsas amildir. Limana yaxın ərazidə azad iqtisadi zona yaradılır. Bu, limanın mühüm nəqliyyat qovşağı kimi tranzit və daşımalar üçün daha geniş imkanlarını təmin edəcək.

"Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişdiyi məkanda yerləşən liman ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici rol oynayır. Ərazisi 117 hektar olan limanda yanalma körpüsü var. Limanın yükaşırma qabiliyyəti ildə 15 milyon tona, o cümlədən 100 min konteynerə bərabərdir. Konteyner meydançasında eyni vaxtda 1040 konteynerin yerləşdirilməsi və 64 soyuducu konteynerə xidmət göstərilməsi üçün xüsusi infrastruktur yaradılıb.

### Sərnişin daşımalarına başlanacaq

Bakı-Tbilisi-Qars dəmir yolu ilə sərnişinlərin daşınması üçün də işlər görülür və bu da turizmin inkişafına yeni nəfəs gətirəcək. "Azərbaycan Dəmir Yolları" QSC-nin sifarişi ilə İsveçrənin "Stadler Rail Group" şirkəti tərəfindən istehsal olunan 10 vaqondan ibarət sərnişin qatarı Türkiyə və Gürcüstandan keçməklə bu ilin martın 29-da Bakıya çatıb. Lakin bundan əvvəl qatar Axalkalakidə quraşdırılmış xüsusi qurğuda test rejimində sınaqdan keçirilib. Qatarların Türkiyədə hərəkəti üçün Gürcüstan-Türkiyə-Gürcüstan sərhəd-keçid məntəqəsində vaqonda təkər cütlərinin eninə bazasının avtomatik olaraq 1520 millimetrdən 1435 millimetrə və əksinə dəyişdirilməsini nəzərdə tutan yeni qurğu quraşdırılıb.

Qatarda 9 sərnişin vaqonu və bir restoran var. Vaqonlar "standart", "komfort", "biznes" və "restoran" olmaqla 4 kateqoriyada istehsal edilib. Kateqoriyasından asılı olaraq, vaqonlar 10, 20 və 32 nəfərlikdir. Ümumilikdə qatarda bir istiqamətə 246 yer nəzərdə tutulub. Saatda 160 kilometr sürətlə hərəkət etmək imkanına malik qatardakı arabacıqlar pnevmatik asılqanla təmin edilib ki, bu da döngələrdə vaqonun tarazlığını tənzimləyir. Bundan başqa, hər bir vaqon dizel generatoru avadanlığı ilə təmin olunub. Bu da lokomotivdə cərəyan olmadıqda vaqonu və ondakı bütün elektrik enerjisi istifadəçilərini 24 saat fasiləsiz elektrik enerjisi ilə təmin edəcək.

"Azərbaycan Dəmir Yolları" QSC ilə "Stadler Rail Group" şirkəti arasında imzalanan müqaviləyə əsasən, daha 10 vaqonun gətirilməsi nəzərdə tutulur.

Hesablamalara görə, birinci mərhələdə sərnişindaşımaların həcmi ildə 1 milyon nəfər, yükdaşımaların həcmi isə ildə 5 milyon ton olacaq. İkinci mərhələdə müvafiq göstəricilər artaraq ildə 2 milyon sərnişin və 17 milyon ton yük təşkil edəcək.

Bütün bunlar onu deməyə əsas verir ki, ölkədə infrastruktur obyektlərinin yaradılması, multimodal logistika sistemlərinin təkmilləşdirilməsi etibarlı və təhlükəsiz nəqliyyat sisteminin fəaliyyəti, respublikamızın ərazisindən keçən nəqliyyat dəhlizlərinin inkişafı ölkəyə valyuta axınına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına, turizmin inkişafına, ümumilikdə Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə səbəb olacaq.

## Dənizçilər daim Ümummilli liderin qayğısını hiss ediblər





***Azərbaycan Dövlət Dəniz Akademiyasında "Ulu Öndər" sənədli filminin təqdimatı keçirilib. Filmdə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-cu ildən 2003-cü ilədək həyat və fəaliyyətinin müxtəlif dövrünü əhatə edən kadrlar, Azərbaycan gənclərinə verdiyi tövsiyələr öz əksini tapıb.***

Nümayişdən öncə ADDA-nın elmi işlər və beynəlxalq əlaqələr üzrə prorektoru Vüqar Sadıqov Ümummilli lider Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurulmasında əvəzsiz xidmətlərindən danışıb. Sovet Azərbaycanının rəhbəri olduğu dövrdə bütün sahələrdə olduğu kimi, gəmiçilikdə də böyük canlanma yaranmışdı. Məhz həmin vaxt Heydər Əliyevin təkidi ilə bir çox yeni tanker və quru yük gəmilərinin tikintisinə başlandı. Müstəqil Azərbaycana rəhbərliyi dövründə də dənizçilər daim Ümummilli liderin qayğısını öz üzərində hiss ediblər. Həmin diqqət və qayğının bugün də ölkə başçısı cənab İlham Əliyev tərəfindən göstərildiyini vurğulayan prorektor V. Sadıqov Azərbaycanın dünya ölkələri sırasında layiqli yer tutmasında bundan sonra da dənizçilərin layiqli əməyinin olacağına əminliyini ifadə edib.

Sonra "Ulu Öndər" sənədli filmi nümayiş etdirilib və tələbələrin böyük marağına səbəb olub. Filmin quruluşçu rejissoru, professor Rafiq Quliyev, redaktoru İradə Soltanova, prodüseri Üzlüfət Qasımovadır. Eyni adlı mahnının bəstəkarı isə xalq artisti Siyavuş Kərimidir. Mahnının sözləri filologiya elmləri doktoru, professor Rafiq Yusifoğluya məxsusdur.

Qeyd edək ki, tədbir Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının icrasını təmin etmək məqsədilə təşkil olunub.

## Ətraf mühitə zərərin vurulmaması üçün zəruri qabaqlayıcı tədbirlər görülür



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) gəmilərdə, eləcə də sahil qurğularında formalaşan maye, bərk və qaz (emissiyalar) halında olan tullantıların müvafiq qaydada idarə edilməsi və onların dənizə, quruya və atmosferə təsirinin qarşısının alınmasını daim diqqətdə saxlayır. Çünki, ətraf mühitin qorunması "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) üçün əsas davamlı inkişaf meyarlarından biridir. Əməliyyatlar zamanı ətraf mühitə zərərin vurulmaması üçün mövcud imkanlar daxilində zəruri qabaqlayıcı tədbirlər görülür.***

Cari ilin yanvar-sentyabr aylarının nəticələrinə görə, ASCO-nun həm sahil, həm də dəniz obyektlərində formalaşan 41302.4 ton çirkab məişət-təsərrüfat suyu, 1491.6 ton neftli döşəməaltı su, 29,9 ton işlənmiş sürtgü yağı, 24,9 ton yağlı və neftli əski bağlanmış müqavilələr əsasında səriştəli mütəxəssislərə və texniki resurslara malik sertifikasiyalı qurumlara təhvil verilməklə ərazilərimizdən kənarlaşdırılıb.

Həmçinin, 16 ədəd yararsız akkumulyator, 19.52 ton rezin tullantısı, 77 ədəd yanacaq, 221 ədəd yağ və 146 ədəd hava süzgəci, 13.3 ton işlənmiş boya qabı və boya tullantıları, 97.65 ton taxta tullantı, 56,99 ton şüşə qırığı, 51,04 ton sellüloz (kağız-karton) tullantısı, 62,74 ton tekstil parça qalığı, 71,36 ton polimer əsaslı və plastmas tullantı, 324,848 ton qida qalığı aidiyyəti üzrə təhvil verilib.

Qeyd edilən dövrdə Dənizkənarı Milli Park və Cəmiyyətin sahil fəaliyyət akvatoriyaları səthindən 5,35 ton müxtəlif ölçülü əşyalar yığılıb təhvil verilib.

## Ölkəmiz transmilli layihələrin reallaşmasında fəal iştirak edir

***Azərbaycan hazırda qeyri-neft sektorunun inkişafını diqqət mərkəzində saxlamaqla yanaşı, həm də beynəlxalq nəqliyyat dəhlizlərinin genişləndirilməsində fəal iştirakı ilə seçilir. Bu baxımdan respublikamız beynəlxalq nəqliyyat dəhlizlərinin genişləndirilməsində, o cümlədən, Çinin yeni İpək yolu üzərində nəqliyyat qovşağına çevrilməsi prosesində yaxından iştirak edir. Yeri gəlmişkən, ötən ilin oktyabr ayında Türkiyənin Qars şəhəri və daha sonra Balkan regionu ölkələri ilə Bakı şəhərini birləşdirən yeni bir dəmir yolu xəttinin açılması Çin və Avropa arasında ən qısa yolun indi Azərbaycan ərazisindən keçməsi deməkdir. Avropa İttifaqı və Çin dünyanın ən böyük ticarət subyektləridir. Yaxın gələcəkdə Mərkəzi Asiya, Rusiya və Şərqi Avropanı birləşdirəcək digər bir marşrut olan "Şimal-Cənub" nəqliyyat dəhlizi də Azərbaycan ərazisindən keçəcək.***

Hazırda Azərbaycan ilə Çin arasında bütün sahələrdə yüksək səviyyədə əməkdaşlıq mövcuddur. Respublikamız bu ölkənin "Bir kəmər, bir yol" təşəbbüsünə qoşulan ilk dövlətlərdəndir. Adıçəkilən strategiya Azərbaycan ilə Çin arasında münasibətlərin daha da genişlənməsi baxımından mühüm önəm daşıyır. Çinin Sian şəhərindən yola düşən blok qatarının bu il iyulun 6-da Bakıya çatması da iki ölkənin iqtisadi cəhətdən möhkəm əlaqələrə malik olduğundan xəbər verir.

Ölkəmiz Avropa və Asiyanı əlaqələndirən nəqliyyat dəhlizi və öz strateji mövqeyi ilə nəqliyyat və logistika qovşağı kimi əhəmiyyətli rol oynayır. Azərbaycan "Şimal-Cənub" və "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizlərin üzərində yerləşməklə geniş tranzit imkanı yaradır.

Respublikamızla Çin arasında əməkdaşlıq yüksək səviyyədə inkişaf edir. İqtisadi sahədə əlaqələrimiz genişlənir. Azərbaycanın böyük potensialı var. Çin şirkətləri üçün burada əlverişli biznes mühiti mövcuddur. Bu ölkənin şirkətləri ilə görüşlər keçirilir, yeni investisiyalar üçün bütün imkanlar yaradılır. Ekspertlər tərəfindən gələcəkdə ticarət dövriyyəsinin, qarşılıqlı investisiyaların qoyuluşunun daha da artacağı əminliklə bildirilir. Yeri gəlmişkən, ötən il Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsinin həcmi 1 milyard 300 milyon dollardan çox olub.



Nəqliyyat dəhlizləri üzrə ölkəyə daxil olan yüklər Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksində toplanır, buradan isə Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilərlə şərq istiqamətində daşınır. Yeni limanın ərazisi də daxil olmaqla böyük bir sahədə sərbəst iqtisadi zona yaradılır. Bu, mühüm nəqliyyat qovşağı olan limanı tranzit və daşımalar üçün daha geniş imkanlarla təmin edəcək.

Hazırda qeyri-neft sektorunun inkişafına və logistika sahəsinə göstərilən diqqət nəticəsində sözügedən limanın əhəmiyyəti daha da artıb. Müasir texnoloji həllərin tətbiq olunduğu limanda professional işçi kollektivinin formalaşması istiqamətində ciddi addımlar atılıb.

Liman Çin hökuməti ilə yaxından əməkdaşlıq edir, keçən il 34 ədəd yükqaldırıcı və yüknəqledici avadanlıqlar (avtoyükləyicilər, teleskopik konteyner yükləyicisi, çətin relyefli kran və sair) quruma hədiyyə olunub. Bundan başqa, son 2 ildə 30-dək liman əməkdaşı Çində qısa və uzun müddətli təlimlərdə iştirak edib, hazırda iki əməkdaş həmin ölkədə magistratura təhsili alır.

Liman 400 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Körpülərin ümumi uzunluğu 2100 metrə yaxındır. Müasir dövrün ən son mühəndislik yeniliklərindən olan dəmir-beton konstruksiyalı istinad divarının uzunluğu isə 1777 metr təşkil edir.

Limanda Ro-Ro tipli gəmilər üçün 2 körpü, 7 körpüdən ibarət universal quru yük və konteyner terminalı, 2 bərə körpüsü, həmçinin xidməti donanma gəmiləri üçün bir körpü inşa edilib. Burada xidməti donanma gəmiləri üçün körpünün uzunluğu 155 metrdir və əraziyə eyni vaxtda 11 gəmi yan ala bilər. Limanın yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min konteyner təşkil edir. Növbəti mərhələdə liman 17 körpüsü ilə 25 milyon ton yük, o cümlədən 500 min konteyner yükaşırma imkanına malik olacaq.

Onu da vurğulamaq lazımdır ki, onlarca ölkəni bir-birinə bağlayan "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin Azərbaycandan keçən avtomobil və dəmir yolu hissələri Ələt yaşayış sahəsində kəsişir. Bu ərazidə fəaliyyət göstərən adıçəkilən liman Xəzər hövzəsinin ən böyük ticarət kompleksidir. Limanın tikintisi ilə bura su magistralları da əlavə edilib. Məhz bütün bunlar - avtomobil, dəmir və su yollarının birləşməsi Azərbaycanın mühüm nəqliyyat qovşağına və yeni logistik məkana çevrilməsinə geniş imkan yaradıb.

Burada bir məsələ ilə bağlı müəyyən qədər geniş bəhs etmək istərdik. Bu da da "Şimal-Cənub" nəqliyyat dəhlizinin gerçəkləşməsi ilə bağlıdır. Xatırladaq ki, Azərbaycan sözügedən beynəlxalq nəqliyyat dəhlizinin reallaşmasında mühüm rol oynayır.

Son dövrlərdə "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin keçəcəyi regionda, fərqli qütblər arasında geosiyasi rəqabətin daha da kəskinləşməsi fonunda sabit və balanslı xarici siyasət yürüdən Azərbaycan yeni siyasi və iqtisadi dividendlər əldə etməyi qarşıya mühüm vəzifə kimi qoyub.

"Şimal–Cənub" nəqliyyat dəhlizi layihəsi 2000-ci ildə İran, Rusiya və Hindistan tərəfindən dövlətlər arasında nəqliyyat əlaqələrini inkişaf etdirmək məqsədi ilə yaradılıb. Dəhliz vasitəsi ilə yüklərin gəmilərlə Hindistanın Mumbay limanından İranın Bəndər–Abbas limanına gətirildikdən sonra qatarlara yüklənməsi və İranın mövcud dəmir yolu ilə Qəzvin–Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolu xəttinə ötürülməsi və birbaşa Azərbaycan ərazisindən Rusiyaya, oradan da Şimali Avropa ölkələrinə çatdırılması planlaşdırılır.

Hazırkı marşrut (Süveyş kanalı) üzrə malların çatdırılma vaxtı 45-60 gündür, "Şimal–Cənub" dəhlizi vasitəsilə 14-20 gün olması gözlənilir.

O da vurğulanmalıdır ki, 2005-ci ildən etibarən layihənin önəmli parçasına çevrilən Azərbaycan son illərdə üzərinə götürdüyü bütün vəzifələri icra edib. İran sərhədinə qədər dəmir yolu infrastrukturunun yenilənməsi təmin olunub və ötən ilin martında İran İslam Respublikasının prezidenti Həsən Ruhaninin ölkəmizə rəsmi səfəri çərçivəsində Astara–Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi ilə bağlı saziş imzalanıb.

Azərbaycan Qəzvin–Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolunun tezliklə istifadəyə verilməsində maraqlıdır və artıq yolun Rəşt–Astara hissəsinin tikintisinə 500 milyon dollar güzəştli kredit ayırılması ilə bağlı qərar qəbul olunub, amma bu, hələ ki, reallaşmayıb.

Azərbaycanın "Şimal–Cənub" nəqliyyat dəhlizi ilə bağlı layihənin ciddiliyini nəzərə alaraq investisiya yatırması ölkəmizə beynəlxalq aləmdə etibarlı tərəfdaş imicini qazandırıb.

Son illərdə Bakı–Tbilisi–Ceyhan dəmir yolunun, Ələtdə Beynəlxalq Limanın tikilib istifadəyə verilməsi və azad iqtisadi zonanın yaradılması nəticəsində Azərbaycan Mərkəzi Asiyanı Qərblə (Türkiyə və Avropa İttifaqı), Cənubi Asiyanı (İran və Hindistan) isə Şimalla birləşdirən nəqliyyat qovşağına çevriləcək.

Hazırda beynəlxalq siyasi arenada baş verən gərginliklər nəticəsində "Şimal–Cənub" layihəsinin reallaşması geciksə də, bu problemin ölkəmizdən qaynaqlanmadığı aydındır. Çünki Azərbaycan gerçəkləşdirilməsi zəruri olan bütün infrastruktur layihələrini uğurla həyata keçirib.

"Şərq–Qərb", "Şimal–Cənub" nəqliyyat dəhlizləri təkcə regional deyil, həmçinin beynəlxalq miqyaslı infrastrukturdur. Məsələn, "Şimal–Cənub" dəhlizi İranı Rusiya ilə birləşdirməklə bərabər, Hindistanı da Avropa ilə bağlayır. Xatırladaq ki, Azərbaycan bu nəqliyyat dəhlizinin reallaşmasını praktik olaraq həyata keçirən ölkələrdən biridir.

"Şərq–Qərb", "Şimal–Cənub" və "Cənub–Qərb" beynəlxalq nəqliyyat dəhlizlərinin geniş imkanları fonunda tranzit yüklərin həcmi də getdikcə əhəmiyyətli dərəcədə artır. Statistik göstəricilər də bu fikri təsdiqləyir. Belə ki, 2019-cu ilin 6 ayında Azərbaycan ərazisindən 4,1 milyon ton tranzit yük daşınıb. Bu göstərici yanvar-iyun aylarında "Şimal–Cənub" nəqliyyat dəhlizi üzrə 131 min ton təşkil edib. Daşınan yüklərin həcmi isə 63 faiz artıb.

"Şimal–Qərb" və "Şərq–Qərb" nəqliyyat dəhlizləri üzrə daşınan yüklərin həcmində də əhəmiyyətli dərəcədə artım qeydə alınıb. Belə ki, yanvar-iyun aylarında "Şimal–Qərb" nəqliyyat dəhlizi ilə daşınan ümumi tranzit yükün həcmi 70 faiz artaraq 829 min ton təşkil edib. "Şərq–Qərb" nəqliyyat dəhlizi ilə daşınan qeyri-neft məhsullarının həcmi isə 42,8 faiz artaraq 795 min ton olub.

*Vaqif BAYRAMOV*

## TAP yenidən Avropa İttifaqının ümumi maraq layihələri siyahısına daxil edilib

***Avropa Komissiyası "Trans-Adriatik" (TAP) qaz boru kəməri layihəsini yenidən Avropa İttifaqının (Aİ) ümumi maraq layihələri (PCI) siyahısına daxil edib.***

TAP boru kəməri Azərbaycan təbii qazını Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliya sahillərinə çatdıracaq.

Sayca dördüncü dəfə hazırlanan PCI üzrə qaz layihələrinin sayı 2 il əvvəllə müqayisədə 53-dən 32-yə enib. Ümumilikdə PCI siyahısındakı bütün layihələrin sayı 21 faizədək azalıb.

Bildirilir ki, Aİ-nin qaz şəbəkəsi daha möhkəmlənib və bütün mövcud PCI-lər tətbiq olunarsa, Avropa İtifaqı 2020-ci ilin əvvəlində bir-biri ilə daha sıx əlaqəli və şoklara davamlı qaz şəbəkəsinə sahib olacaq.

Qeyd edək ki, sentyabrın sonuna TAP qaz boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 89,8 faizi icra edilib.

TAP-ın quru hissəsinin inşası üzrə İtaliyada boruların tikintisinə başlanılıb. Melendugno şəhərindəki 1,5 kilometrlik mikrotunelin inşası aprelin sonunda turist fəaliyyətləri və sahilboyu ətraf mühitə heç bir təsir və ya müdaxilə olmadan tamamlanıb. Boru kəmərinin İtaliya hissəsinin və qəbul terminalının tikintisinin tamamlanması üzrə işlər davam edir. Hazırda qəbul terminalının inşasının 32 faizi yekunlaşıb. Həmçinin TAP-ın İtaliyadan keçəcək təxminən 8 kilometrlik hissəsində boruların 3 kilometri xəndəyə endirilib.

TAP-ın quru hissəsinin inşası çərçivəsində Yunanıstan, Albaniya və İtaliya marşrutunda boruların 99 faizi torpağa basdırılıb. İlin sonuna kimi Yunanıstan və Albaniya marşrutunda boruların 100 faizi torpağa basdırılacaq. Yunanıstan, Albaniya və İtaliyada boru kəməri marşrutunun 97 faizində torpaq örtüyü bərpa edilib, boruların 99 faizi marşrut xətti boyunca düzülüb. Üç ölkədə boruların 99 faizi qaynaqlanıb, xəndəkqazma işlərinin isə 99 faizi tamamlanıb.

TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına da başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

Boru kəmərinin inşası üzrə Albaniya sularında dəniz borularının tikintisi artıq başa çatıb. Boru kəmərinin dəniz hissəsi Albaniya və İtaliya sahillərini bir-birinə birləşdirəcək və uzunluğu 105 kilometr olacaq. Adriatik dənizində boruların 37 kilometri Albaniya, 25 kilometri İtaliya, 43 kilometri isə beynəlxalq sularda döşənəcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək, 36 düymlük xəttin inşasında ümumilikdə 100 min ton ağırlığında təxminən 9 min boru istifadə olunacaq. "Saipem" dənizdəki tikinti işləri üçün təqribən 10 gəmidən istifadə edəcək.

TAP-ın ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşasına 2017-ci ilin birinci yarısında başlanılıb və işlər qrafik üzrə davam etdirilir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi də aparılır. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən 2 il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. Təxminən 6 ay müddətində aparılacaq bu əhatəli yoxlamalar yeni qurğuların tam işlək, eləcə də təbii qazın nəqli üçün təhlükəsiz və hazır olub-olmadığını göstərəcək. Lazımi turbo kompressorlar isə "Siemens" şirkəti tərəfindən istehsal olunub.

Xatırladaq ki, layihə üzrə kapital xərcləri 4,5 milyard avrodur. Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən – Yunanıstan, Albaniya və İtaliyadan keçir. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəməri və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. TAP-la Avropaya ilk qazın verilməsi 2020-ci ilə planlaşdırılır.

Boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Kəmər buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. TAP "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

# Təlim-Tədris Mərkəzində əcnəbi tələbələr üçün seminar keçirilib





***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasının tərkibində fəaliyyət göstərən Təlim-Tədris Mərkəzində xarici tələbələr üçün seminar keçirilib.***

"Beynəlxalq Dəniz Təşkilatının (İMO) Tənzimləmə Çərçivəsi vasitəsilə dəniz sənayesi üçün keyfiyyət standartlarının əlavə dəyəri" mövzusunda keçirilən seminarı kapitan Titos Giannakakis aparıb.

5 günlük təlim zamanı kurs iştirakçılarına Beynəlxalq Dəniz Təşkilatının təhlükəsizlik qaydaları, bu qaydaların dənizçilik sahəsindəki keyfiyyət standartlarına, davamlı inkişafa və idarəçiliyə təsiri barədə ətraflı məlumat verilib.

Seminar interaktiv formada keçirilib, iştirakçıların fikirləri dinlənilib, sualları cavablandırılıb.

# "Breakbulk Caspian-2019" konfransında Azərbaycan ərazisindən keçən tranzit marşrutlarının üstünlükləri nümayiş etdirilib

***Azərbaycan dəmir yolunun imkanları Özbəkistanın paytaxtı Daşkənddə keçirilən "Breakbulk Caspian-2019" adlı konfransda təqdim edilib.***



"ADY Express" MMC-dən bildirilib ki, iki gün davam edən konfransda əsasən Özbəkistan və Mərkəzi Asiya ölkələrinin və onların xarici tərəfdaşlarının, iri yük sahibləri, aparıcı nəqliyyat və logistika şirkətlərinin nümayəndələri, idxal, ixrac və tranzit yüklərinin nəqli perspektivləri, həmin yüklərin axın istiqamətləri, dəmir yolu ilə onların effektiv daşınması və digər aktual məsələlərə dair müzakirələr aparıblar.

Tədbirdə iştirak edən "ADY Express" MMC-nin nümayəndələri tərəfindən həmin növ yüklərin Özbəkistan və Mərkəzi Asiya ölkələrindən "Şərq-Qərb" istiqamətində nəqli məsələləri təqdim olunub. "Azərbaycan Dəmir Yolları" QSC-nin, Bakı-Tbilisi-Qars dəmir yolu kimi iri infrastruktur layihələrinin imkanlarını konfrans iştirakçılarının diqqətinə çatdıran şirkət nümayəndələri qərb istiqamətində bu növ yüklərin daşınmasında Azərbaycan ərazisindən keçən tranzit marşrutlarının üstünlüklərini nümayiş etdiriblər.

"ADY Express" şirkətinin nümayəndəsi Azərbaycanın dəmir yolu daşımalarında tranzit imkanları haqqında tədbir iştirakçılarını məlumatlandırıb. Bildirilib ki, Bakı-Tbilisi-Qars dəmir yolunun və digər mühüm infrastruktur layihələrinin imkanları Azərbaycanın tranzit potensialını artırır. Azərbaycan ərazisindən keçən dəmir yolu marşrutları daha tez və əlverişli şərtlərlə yüklərin ünvana çatdırılmasına imkan yaradır. Yüklərin həm Türkiyəyə, həm də Türkiyənin Aralıq dənizindəki limanlar vasitəsilə digər ölkələrə daşınması variantlarını təklif edən "ADY Express" şirkəti iri yük sahiblərinə yeni logistik məhsul nümayiş etdirib.

Konfrans çərçivəsində Özbəkistan və Mərkəzi Asiya regionunun digər ölkələrinin, eləcə də Türkiyə, Rusiya və Avropanın iri yük sahibləri ilə ikitərəfli görüşlər keçirən "ADY Express" nümayəndələri gələcək əməkdaşlığın perspektivlərinə dair müzakirələr aparıblar.

# Çindən Bakı Limanına gələn konteynerlərin sayı 90 faiz artıb

***Bu ilin yanvar-sentyabr aylarında Çindən Bakı Limanına gələn konteynerlərin sayı 90 faiz artıb.***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-dən bildirilib ki, Ələt qəsəbəsindəki yeni Bakı Limanında Konteynerlərin aşırılmasında 43,5 faiz artım müşahidə olunub. Belə ki, 9 ayda 24 min 305 ədəd konteyner (TEU ekvivalentində) aşırılıb (2018-ci ildə 16 min 940 TEU olub). Çindən gələn konteynerlərin sayı isə 90 faiz artaraq 2610 ədəd təşkil edib.



Bərə terminalında vaqon aşırılması 12 faiz artaraq 35 min 510 ədədə çatıb və keçən ilin müvafiq dövründə isə bu göstərici 31 min 688 ədəd vaqon olub. Bunlardan 16 min 39 vaqon (45,2 faiz) Bakı-Kurık-Bakı, 19 min 429 vaqon (54,7 faiz) Bakı-Türkmənbaşı-Bakı, 42 vaqon (0,1 faiz) isə Bakı-Aktau-Bakı istiqamətində hərəkət edib.

# "Anaklia" layihəsi Gürcüstan üçün Bakı-Tbilisi-Ceyhan və Bakı-Supsa neft kəmərləri qədər strateji əhəmiyyətə malikdir

***Gürcüstan ərazisində həyata keçiriləcək istənilən iri regional layihə ölkənin təhlükəsizliyi və sabitliyini möhkəmləndirəcək. Bakı-Tbilisi-Ceyhan və Bakı-Supsa boru kəmərləri Gürcüstan ərazisindən keçir, lakin bu layihələr ölkəyə məxsus deyil. Bu layihələr regional əhəmiyyətə malikdir və dəhlizin bütün ölkələrinin təhlükəsizliyinə töhfə verir.***



Bu sözləri Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri Natia Turnava "1TV.ge" (birinci kanal) kanalındakı "Sərbəst baxış" proqramında ölkə ərazisində inşa olunan dərin özüllü "Anaklia" limanı layihəsinin əhəmiyyəti ilə bağlı sualı cavablandırarkən deyib.

Onun sözlərinə görə, hər iki boru kəməri Gürcüstanın enerji təhlükəsizliyinə töhfə verən əsas amillərdəndir. "Anaklia" layihəsi Gürcüstan üçün Bakı-Tbilisi-Ceyhan və Bakı-Supsa neft kəmərləri qədər strateji əhəmiyyətə malikdir.

N.Turnava deyib ki, bu yaxınlarda keçirilən beynəlxalq Tbilisi İpək Yolu Forumunda bir çox ölkələrin nümayəndələri Gürcüstanda dərin özüllü dəniz limanının tezliklə inşa edilməsində maraqlı olduqlarını bildiriblər: "Layihə yalnız bizim deyil, digər ölkələrin də maraqlarına cavab verir".

***Xətayi Əzizov***

# "Dəniz qapısı"nda ümumi yükaşırmanın 85,3 faizi tranzit yükaşırmanın payına düşüb

***Bakı Limanında irihəcmli nəqliyyat vasitələrinin aşırılması 64 faiz artıb.***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-dən verilən məlumata görə, bu ilin yanvar-sentyabr aylarında Ələt qəsəbəsindəki yeni Bakı Limanında ümumi yükaşırmanın həcmi ötən ilin müvafiq dövrünə nisbətdə 7,1 faiz artaraq 3 milyon 2,5 min ton olub və göstərilən bütün xidmətlər üzrə nəzərəçarpacaq artım qeydə alınıb. Ümumi yükaşırmanın 85,3 faizi (2 milyon 560,3 min ton) tranzit yükaşırmanın payına düşüb.

Keçən ilin eyni aylarına nisbətən irihəcmli nəqliyyat vasitələrinin (TIR-ların) sayı 64 faiz artaraq 24 min 790 ədəd olub. Belə ki, bunlardan 18 min 642 ədədi (75,2 faizi) Bakı-Türkmənbaşı-Bakı, 6148 ədədi isə (24,8 faizi) Bakı-Kurık-Bakı istiqamətində hərəkət edib.



# "Dənizçilərin sağlamlığının qiymətləndirilməsi zamanı beynəlxalq meyarlar"

***ASCO-nun sədri Rauf Vəliyevin tapşırığı ilə dənizçilərimizin diaqnostik, ambulator-poliklinik, müalicə-profilaktik xidmətinin təkmilləşdirilməsi ilə bağlı layihələr həyata keçirilir. Dənizçilərin peşə fəaliyyətindən irəli gələn xəstəliklərin və onların fəsadlarının aradan qaldırılmasına xüsusi diqqət yetirilir. ASCO işçilərinin tibbi müayinəsinin beynəlxalq tələb və göstəricilərinə uyğunluğunu təmin etmək üçün müvafiq ədəbiyyatlar hazırlamaqla maarifləndirmə işi həyata keçirilir.***

"Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20.12.2018-ci il tarixli Fərmanı, tam əminliklə deyə bilərik ki, səhiyyə sahəsində böyük bir dönüş yaratdı. Bu fərmana görə, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsi (TƏBİB) yaradılır. Bu baxımdan həqiqətən də ən vacib sığorta insan həyatının sığortalanmasıdır. Məhz buna görə dövlət tərəfindən icbari tibbi sığortanın tətbiqi üçün praktiki struktur formalaşdırılıb. İcbari tibbi sığorta haqqında Milli Məclis tərəfindən 1999-cu ildə qanun qəbul edildikdən sonra müstəqil şəkildə tibbi sığorta proseslərini həyata keçirən qurumlar formalaşmağa başladı. 16 fevral 2016-cı ildə Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, 20.12.2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərmanı ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nəzdində Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi publik hüquqi şəxsi yaradıldı. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin həyata keçirəcəyi sığortanın mexanizmi belədir: muzdla çalışanlar, işçilər əmək haqqının 2%-ni, işəgötürənlər də verdikləri maaşın 2%-ni sığorta Agentliyinə köçürəcəklər. Əhalinin müəyyən kateqoriyasının – 18 yaşınadək uşaqların, pensiya yaşında olan vətəndaşların, əlillərin, aztəminatlı ailələrin, tələbələrin və hamilə qadınların sığorta haqlarını dövlət öz üzərinə götürür. Tibbi sığorta bazarının güclənməsi üçün bu fərman xüsusi əhəmiyyət daşıyır. İkinci isə tibb müəssisələri arası rəqabət çox olduğundan, bəzən maraqlar toqquşurdu, çünki icbari özəl tibbi sığorta şirkətləri ilə müqavilə bağlayan idarə və müəssisələr sığorta şirkətləri tərəfindən onlara təqdim olunmuş tibb müəssisələri çərçivəsində seçim edə bilirdi. Bu da belə bir tendesiya yarada bilirdi ki, sığorta şirkətlərinin siyahısında təmsil olunmuş tibb müəssisələrindən qat-qat üstün tibbi personala və maddi-texniki bazaya malik bəzi dövlət tibb müəssisələri, özəl tibbi sığorta şirkətlərinin sığortaçıya tibbi xidmət edəcək müəssisələri siyahısına alınmırdı. Ona görə də vəziyyətdən çıxış yolu kimi İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin nəzdində "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsi yaradıldı. TƏBİB-ə daxil olacaq publik hüquqi şəxs statusu qazanan tibb müəssisələri özləri müstəqil olaraq müəssisənin marketinqini həyata keçirmək imkanına malik olur. Mövcud qanunlar çərçivəsində tibb müəssisələri xidmət paketlərini müəssisə və təşkilatlara təqdim edir. Müəssisə və təşkilatlar da öz əməkdaşlarına tibbi xidmətin göstərilməsi müqaviləsini ya birbaşa (TƏBİB-ə hesabat verməklə), ya da tibbi sığorta təşkilatları vasitəsilə həyata keçirmək imkanı əldə edir. Müəssisə və təşkilatlar tibb müəssisələri ilə birbaşa müqavilə bağladıqda onların işçilərinə göstərilən tibbi xidmətin müqabilində tibb müəssisələri qarşısında müəyyən öhdəliklər qoya bilər. Bu öhdəliklərdən biri də odur ki, tibbi xidmətlərə görə ödəniləcək məbləğin müəyyən bir hissəsi İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə ödənsin. Beləliklə də tibb müəssisələri göstərdiyi tibbi xidmətlərə görə əldə etdiyi gəlirin müəyyən bir hissəsini sığorta şirkətinə ödəyir. Bu rəqəm göstərilən xidmətin müqabilində əldə olunmuş gəlirin miqdarından asılı olaraq dəyişə bilər. Amma faiz hesabı ilə bu rəqəm hesablanmalı, tərəflərin hər ikisini təmin etməlidir. Yaxud da 3 tərəfli müqavilə şəklində (tibb müəssisəsi, tibbi xidmət haqqını ödəyən təşkilat və sığorta şirkəti) razılaşma formasında həyata keçiriləcək. Bu istənilən halda yarana biləcək hər hansı yersiz söz-söhbətlərin qarşısını alacaqdır. Müstəqil olaraq tibb müəssisələri öz marketinqlərini həyata keçirmək imkanı əldə etdiyinə görə, onlar daha çox tibbi xidmət paketi əldə etmək naminə öz maddi-texniki bazalarını genişləndirmək və daha yüksək səviyyəli mütəxəssisləri cəlb etmək baxımından və həmçinin tibbi xidmətin səviyyəsini artırmaq üçün tələb olunan addımlar atmağa məcbur olacaqlar. Tibb müəssisələrinə bu baxımdan "intervent investisiya" cəlb etmək hüququ da verilir. Bu məqsədlə tibb müəssisəsinin əmlakı səhmlərə də çevrilə bilər və bu səhmlərin satışı nəticəsində "intervent investisiya" əldə etmək olar. Bu cür sistemin tətbiqi tibbi personalın əməkhaqlarının yüksəlməsinə də səbəb olacaqdır. Bu komponentləri və hüquqları özündə birləşdirən tibb müəssisələri sağlam rəqabət apararaq daha da inkişaf etmək üçün çalışacaqdır. İkinci bir tərəfdən depozit tibbi sığortanı əldə etmək baxımından da rəqabətə cəlb olunacaqdır. Depozit tibbi sığortanın üstün cəhətlərindən biri də odur ki, tibbi xərclər müraciət edənin öz hesabına ödənilir. Müstəqil maliyyə fəaliyyəti göstərən tibb müəssisəsi depozit tibbi sığortanın formalaşmasında iştirak edə biləcək. İstənilən halda tibb müəssisəsinin yüksək tibbi xidmət göstəriciləri fərdi qaydada müraciətləri artıracaq. Belə halda tibb müəssisəsi ilə fiziki şəxs arasında depozit tibbi xidmət haqqında müqavilə bağlana bilər və bu müqavilə nəticəsində formalaşmış gəlirin müəyyən bir hissəsi İTSDA-nın hesabına keçirilərək müəyyən faiz nisbətində hesablanır. Tibb müəssisələrinin inkişafını təmin etmək üçün öz səhmlərini istiqraz vərəqələrinə çevirərək əlavə maliyyə mənbələrini formalaşdıra bilər. Yəni bu istiqrazları əldə edən hüquqi və ya fiziki şəxslər müəyyən dövr ərzində və ya həmişəlik güzəştli tibbi xidmət əldə edəcəklər. İTSDA yüksək tibbi xidmətin təmin olunması baxımından səhmlərini istiqraza çevirmiş tibb müəssisələri başqa bir formada və ya güzəştli ödəmələr strategiyasını həyata keçirə bilər. Eyni zamanda bu gün tez-tez rast gəlinən və praktikada özəl tibbi sığorta şirkətləri ilə yaranan ziddiyyətlər də aradan qaldırılır. Konkret olaraq hansı patologiyaların və ya xəstəliklərin tibbi sığortaya daxil edildiyi göstərilmirdi və ümumi terminlərdən istifadə olunurdu.




Məsələn, üz-çənə cərrahiyyəsinin tibbi sığortaya daxil olması barədə bağlanmış müqavilənin stasionar yardım bölməsində göstərilsə də, sığorta riskləri bölməsinin istisnalar hissəsində rekonstruktiv cərrahiyyə adı ilə belə əməliyyatların aparılmasından imtina edilir. Halbuki, rekonstruktiv cərrahiyyə dedikdə, çənə sınıqlarının bərpası - çənənin iltihabından formalaşmış osteomielitlərdən əmələ gəlmiş çənə rezorbsiyaları, osteoblastoklastoma və s. başa düşülməlidir. Əslində isə bu özü elə üz-çənə cərrahiyyəsinin tərkib hissəsidir. Eyni hal digər patologiyalar üzrə də təkrarlanır. Neyrocərrahiyyə və travmatologiya müqavilənin stasionar yardım bölməsinə daxil edilsə də, hansı növ patologiyaların ora aid olduğu göstərilmirdi.

ASCO-da həyata keçirilən sosial proqramlar daxilində "Dənizçilərin beynəlxalq standartlara uyğun tibbi müayinəsi haqqında məlumat kitabçası"nı Hüquq Departamenti, KSƏTƏMM, Sosial inkişaf və nəqliyyat şöbəsi ilə birgə işləyb hazırlayaraq nəşr etdirdik. Bu kitabça dənizçilərin müayinəsi zamanı üzə çıxan xəstəliklərlə bağlı hansı qərarın verilməsi, tibbi diaqnozlardan asılı olaraq dənizçilərin hansı halda üzücü heyətə buraxılıb-buraxılmaması və ümumilikdə tibbi sağlamlıq sertifikasiyasının verilməsinin Beynəlxalq Konvensiyaların şərtləri baxımından olduqca əhəmiyyətli idi. Kitabça həm həkimlərimizin, həm də dənizçilərimizin maariflənməsi üçün vacib bir mənbə oldu.

ASCO-nun Könüllü Tibbi Sığorta Proqramına qoşulması "Dənizçilərin Sağlamlığının Qiymətləndirilməsi Zamanı Beynəlxalq Meyarlar" adlı yeni kitabımızın yaranmasına səbəb oldu. Belə ki, 2018-ci ilin fevral ayının 1-dən ASCO-nun əməkdaşları Könüllü Tibbi Sığorta Proqramından yararlanmağa başlamışlar. Bu baxımdan Könüllü Tibbi Sığorta Proqramında təmsil olunmuş tibb müəssisələrinin, xüsusən su akvatoriyalarının təsirindən dənizçilərdə əmələ gələn spesifik xəstəliklər üzrə onların təfərrüatlı tibbi təlimatlara təmin edilmələri çox vacibdir. Belə ki, Dəniz Təhlükəsizliyi Komitəsi tərəfindən təsdiq olunmuş beynəlxalq qaydalara uyğun müasir elmi-praktiki nəticələri, İMCA-nın (Beynəlxalq Dəniz Podratçılar Assosiasiyası) tələblərini və DMAC-ın (Dalğıc Tibb Məsləhət Komitəsinin) tövsiyələrini, müalicəvi rekompressiya rejimlərini nəzərə alaraq həyata keçirilməsini daha düzgün sayır. Bu baxımdan dənizçilərin müayinəsi zamanı bu məsələyə xüsusi diqqət yetirilməlidir. Nəzərə almaq lazımdır ki, dənizçilərdə üzə çıxan patologiyalar adi şəraitdə insan orqanizminə təsir edən faktorlardan fərqlidir. İMO (Beynəlxalq Dəniz Təşkilatı) ilə WHO (Ümumdünya Səhiyyə Təşkilatı) birgə dənizçilərdə üzə çıxan patologiyalarla bağlı və onların əmək qabiliyyətlərinin yaralrılıq qiymətləndirməsi cədvəlini işləmişlər. Təqdim etdiyimiz "Dənizçilərin Sağlamlığının Qiymətləndirilməsi Zamanı Beynəlxalq Meyarlar" kitabında məhz yuxarıda qeyd etdiyim konkret tövsiyələr cədvəlindən istifadə edilmişdir və Könüllü Tibbi Sığorta Proqramında təmsil olunmuş tibb müəssisələrinin bu tövsiyələrlə tanış olmaları və buna diqqət vermələri olduqca vacibdir.

***Adıgözəl Məmmədov, Layihənin icraçısı***

# “Süleyman Vəzirov” borudüzən gəmisinin uğurlarında heyətin hər bir üzvünün zəhmət payı var



***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC (ASCO) unikallığına görə seçilən gəmiçilik şirkətlərindəndir. Donanmalarında müxtəlif təyinatlı gəmilərin mövcudluğu ASCO-nun dünya gəmiçilik şirkətləri sırasında layiqli yer tutmasına imkan yaradır. Bu dəfə sizi şirkətin ixtisaslaşdırılmış donanmasında ölkəmizin neft-qaz sənayesinə öz töhfəsini verən “Süleyman Vəzirov” borudüzən gəmisinin işgüzar heyəti ilə tanış etməyə çalışacağıq.***

Hazırda gəmi Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Abşeron” qaz-kondensat yatağında boruların döşənməsi üzrə əməliyyatların 3-cü mərhələsi işlərinə cəlb olunub. Bu layihə üzrə 2 mərhələni uğurla arxada qoyan heyətin işi və qayğılarından reportaj hazırlamaq üçün “Zəfər” gəmisi ilə sahildən 12 mil aralı üzü “Bulla” rayonuna doğru hərəkət etdik.

Bu da “Süleyman Vəzirov” borudüzən gəmisi... Əslində mən buna gəmi yox, “ada” deyərdim. Təsəvvür edin, sahildən onlarla kilometr aralıda, həyatın və işin gecə-gündüz qaynadığı və yüzdən artıq heyəti olan bir məkan...

Borudüzən gəmiyə yaxınlaşdıqca, orada gedən intensiv işlərin sədası daha aydın gəlirdi. Az sonra “Zəfər” “Süleyman Vəzirov” gəmisinə yan aldı və biz sanki başqa bir aləmə qədəm qoyduq.

Kran boruları qaldırır, qaynaqçılar vaxt itirmədən onları bir-birinə birləşdirir, kapitan köməkçiləri təhlükəsizliyə xüsusi diqqət yetirir və sair və ilaxır... Bir cümlə ilə desək, “Bulla” dəniz yatağı “Qaz Yığma məntəqəsi 2A”-dan “Daşgil” adasına uzunluğu 27 kilometr 647 metr olan boru kəmərinin çəkilişi prosesi gedirdi...

Kapitan Teymur İsmayılov mənə təvazökar olduğu qədər də tələbkar insan təəssüratı bağışladı. 57 yaşlı kapitan 1983-cü ildən sular qoynundadır. Gənc yaşlarında quru yük gəmilərində, tankerlərdə matros işləyib. Kapitan kimi ilk səfərinə 5 il əvvəl çıxıb. 3 ildir “Süleyman Vəzirov”un heyətinə başçılıq edir. Biz gəmidə olarkən kapitan borüdüzmə əməliyyatına rəhbərlik edirdi.

Kapitan kimi üzərinə olduqca mürəkkəb, məsuliyyətli bir missiya düşdüyündən boş vaxtı çox az olur. Buna baxmayaraq, vaxtaşırı gəmiyə praktikaya gələn Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələrilə təcrübəsini həvəslə bölüşür. Gələcəyin dənizçilərinə 21-ci əsin geniş imkanlarından düzgün istifadə etməyi məsləhət görür. Məzuniyyətdə olanda isə asudə vaxtının çox hissəsini nəvələrinə həsr edir. Öyrəndik ki, cavanlıqda voleybolla məşğul olub. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin voleybol komandasının tərkibində keçmiş SSRİ respublikalarının müxtəlif şəhərlərində keçirilən yarışlarda iştirak edib. Formadan düşməmək üçün hərdən “cavanlığını yada salır”.

Növbəti həmsöhbətim kapitanın baş köməkçisi Yusif Hüseynovdur. Yusif müəllim 61 illik ömrünün 40 ilini dənizə həsr edib. Bunun 18 ilini “Süleyman Vəzirov” gəmisində keçirib. O da uşaqlıqdan dənizçi olmağı arzulayıb və bu arzusu onu Bakı Balıq Sənayesi Texnikumuna gətirib. Sonralar istehsalatdan ayrılmadan ali təhsil də alıb...

Gəmini gəzirik. Kapitanın növbə köməkçisi Fikrət Qasımovla da iş başında tanış oluruq. O, çəkilmədə olan borunun suya salınmasına cavabdehlik daşıyır. 49 yaşlı Fikrət müəllim sular qoynuna 31 il əvvəl gəlib. Müxtəlif gəmilərdə müxtəlif vəzifələrdə çalışıb. Artıq 2 ildir bu gəmidədir. Dənizin şıltaqlığı onu qətiyyən qorxutmur, əksinə, çətinliklərdən çıxdıqca, özünə inamı daha da artır.

Müşahidələrimizdən belə qənaətə gəldik ki, bu gəmidə elektrik və mexaniki cihazlar digər gəmilərə nisbətdə çoxluq təşkil edir. Elə bu fikirlə də gəminin maşın şöbəsinə endik. Böyük mexanik Rəcəb Yusifov peşəsinə ürəkdən bağlı olan insanlardandır. Əksər dənizçilər kimi, o da uşaqlıqdan dənizçi olmaq istəyib. Azərbaycan Dövlət Dəniz Akademiyasının “Elektrik qurğuları” fakültəsini bitirəndən sonra müxtəlif gəmilərdə üzüb. 52 yaşı var və 31 ildir dənizə sədaqətlidir. Bir vaxtlar sorağı Türkiyə, Misir, Albaniya, Əlcəzair və İtaliya kimi ölkələrin sahillərini yuyan dənizlərdən gəlib. Dediyinə görə, məzuniyyətdə olanda da fikri çox vaxt gəmidə olur.

Maşın şöbəsində çalışan daha bir məsul əməkdaş elektrik mexaniki Mərdan Zinharovdur. Balıq Sənayesi Texnikumunun elektrik mexaniki fakültəsini bitirib. Ötən 22 il ərzində ASCO-nun demək olar ki, əksər gəmilərində çalışıb. Digər tip gəmilərdən fərqli olaraq bu gəmidə elektrik mexanikinin işi daha çətin və məsuliyyətlidir. Məzuniyyətə çıxanda isə adətən anadan olduğu Ağdaş rayonuna tələsir. Asudə vaxtlarında at çapmağı çox sevir.

Göyərtədə gedən prosesləri müşahidə etmək üçün yuxarı qalxdıq. Krançı Namiq Bağırov 21 ildir dənizdədir. 50 yaşlı dənizçinin dediyinə görə, “quruda” olan peşələrin heç biri ürəyinə yatmayıb. Krançı kimi, işinin öhdəsindən layiqincə gəlir. Üstəlik, qaz borularının bir-birinə düzgün calanmasına nəzarət edir.

Bosman Mübariz Abudovun işə münasibəti çoxlarına nümunədir. Sular qoynunda əmək fəaliyyətinə 37 il əvvəl başlayıb. “Süleyman Vəzirov” ürəyinə necə yatıbsa, başqa gəmidə çalışmaq fikrindən uzaq olub. 30 ilə yaxındır “Süleyman Vəzirov”un uğurlarında onun da zəhmət payı var.

Söhbətimizə heyətin ən gənc üzvü Mövsüm Hacıyev da qoşuldu. Öyrəndik ki, 34 yaşlı matros 2 ildən çoxdur ki, burada işləyir. Dəniz sevgisi ona dənizçi əmisindən keçib. Mövsüm həm də yaxşı santexnikdir. Gəmidə bu peşəyə ehtiyac olanda, dərhal qollarını çırmalayır. Dənizçilikdən öncə Mövsüm karate ilə məşğul olub. Müxtəlif beynəlxalq yarışlarda uğurla çıxış edib, qara kəmər sahibidir.

Hava artıq qaralmışdı. Gəmidə isə iş əvvəlki ahənglə davam edirdi. Biz dənizçilərlə xudahafizləşib geri qayıtmaq üçün “Zəfər” gəmisinə keçəndə “Süleyman Vəzirov”un işgüzar heyəti daha bir iş gününü zəfərlə başa vurmaq üçün yenidən əl-ələ verdi.

***İlqar Quliyev,***
***Turab Məmmədov (foto)***















# Sizin təhlükəsizliyinizin qayğısına qalanların işinə anlayışla yanaşın



***Alışqan, akkumulyator və ya batareyanı necə düzgün qablaşdırmalı? Nə üçün paştet təyyarədə maye sayılır? Nə üçün xizək sürtküsü təyyarədə problem yaradır? “Finavia”-nın təhlükəsizlik xidmətinin rəhbəri Yoni Pekkanen baqaja baxış zamanı səyyahlar üçün gözlənilməz problemlər yaradan nüanslardan danışıb.***

“www.tonkosti.ru” saytı uçuşdan əvvəl nəzarət-buraxılış məntəqələrində sərnişinlərdən daha çox müsadirə olunan əşyalar barədə məlumat verir.

**Məlumatlı olmamaq özünə bəraət qazandırmağa əsas vermir**

Aeroportlarda baqaja qarşı irəli sürülən çoxsaylı tələbləri sərnişinlərin yadda saxlaması çətindir. Hansısa əşyanı yük bölməsində, hansısa əşyanı salonda daşımaq olar, bəzi əşyaları isə evdə qoymaq məsləhətdir. Bu tələblərdən baş çıxarmaq bəzən çətin olur.

Mütəxəssisin sözlərinə görə, hər gün “Finavia” aeroportlarının nəzarət-buraxılış məntəqələrində sərnişinlərin çamadanlarından 200-dən çox müxtəlif əşya müsadirə olunur. Adama elə gəlir ki, bu əşyalar tamamilə zərərsizdir, lakin əslində onlar təyyarədəki insanlara böyük təhlükə törədir. Əlbəttə, çantasına probkaaçan və ya toxuma üçün millər qoymuş səyyahların çoxunun heç bir qəsdi olmur. Lakin “Vay-vay, buna icazə verilmədiyini bilmirdim” sözləri də sizə bəraət qazandırmır. Bu əşyalar onsuz da müsadirə olunacaq. Axı aeroport işçilərinin vəzifəsi uçuşun təhlükəsizliyini təmin etməkdir. Odur ki, inciməyin!

**Əl yükü**

***1.Həcmi 100 milliqramdan çox olan mayelər***

Bu kateqoriya çox vaxt içərisində içki olan butulkalara, losyon, tonik, maye sabun və şampun kimi kosmetik və gigiyenik vasitələrə şamil olunur. Yeri gəlmişkən, diş pastası, eləcə də çörəyə yaxılan bəzi yeməklər, o cümlədən paştet, ketçup, bal və s. də aeroport işçisi üçün mayedir.

Sərnişinlərin çoxu mühüm bir məsələni başa düşmür: nəzarət-buraxılış xidməti taranın içindəki mayenin həcminə deyil, taranın özünün ölçüsünə baxır. Məsələn, 200 milliqramlıq butulkanın içərisində cəmi 50 milliqram şampun qalmasına baxmayaraq, bu butulkanın həcmi 100 milliqramdan çox hesab ediləcək. Öz işinə ciddi yanaşan aeroport işçisinin bu butulkanı müsadirə etməyə tam haqqı var.

**Nə etməli:** kosmetika və yemək daşımaq üçün həcmi 100 milliqrama qədər olan qablardan istifadə edin. Daha həcmli əşyaları çamadana qoyub baqaja təhvil verin.

***2.Kibrit və alışqanlar***

Dərhal qeyd edək ki, ABŞ-ın hava limanlarında təyyarəyə kibrit, yaxud alışqan götürmək qadağandır. Avropada bu əşyalara bir o qədər də ciddi yanaşmırlar. Odur ki, bir qutu kibrit və ya bir alışqanı özünlə götürmək mümkündür.

**Nə etməli:** ya kibrit qutusunu, ya da alışqanı cibinə qoya bilərsən.

***3.Deşici və kəsici alətlər***

Qayçı, qatlama bıçaq, probkaaçan, toxuma üçün millər və digər deşici-kəsici alətləri əl yükündə daşımaq qadağandır. Bu əşyaları təyyarənin salonuna keçirməyə icazə verilmir.

**Nə etməli:** bütün bu vasitələri yalnız yük bölməsində daşımaq olar. Amma etibarlı şəkildə qablaşdırılmalıdır ki, əşyalarınız və çamadanınız zədələnməsin.

**Təhvil verilən baqaj**

***4. Bir daha kibrit və alışqanlar barədə***

Bu əşyaları yük bölməsinə təhvil vermək olmaz, çünki onların alovlanması riski yüksəkdir.

**Nə etməli:** bir alışqan və ya kibrit qutusu ilə kifayətlənmək lazımdır. Bunların yalnız birini özünüzlə salona götürə bilərsiniz.

***5.Litium batareyaları və xarici akkumulyatorlar***

Yoni Pekkanenin sözlərinə görə, aeroport əməkdaşları yük bölməsinə təhvil verilən baqaja baxarkən çox vaxt məhz bu əşyaları müsadirə edirlər.

**Nə etməli:** batareyaları və doldurucu akkumulyatorları əl yükündə salona gətirmək olar. Bu qayda təhlükəsizlik mülahizələrinə görə tətbiq edilib: əgər bir hadisə, məsələn, alovlanma, qapanma, qığılcımlanma baş versə, onun qarşısını baqaj bölməsində deyil, məhz salonda sürətlə almaq mümkündür.

Daha bir mühüm məqam: batareyalarda litiumun miqdarı bir batareya üçün 2 qramdan (yaxud 100 vatt-saat) çox olmamalıdır. Bundan əlavə, təyyarəyə yalnız 2 ədəd ehtiyat batareya götürə bilərsiniz. Qısa qapanmaya yol verməmək üçün onları etibarlı şəkildə qablaşdırmalısınız!

***6. Alovlanan maddələr***

Bura alışqanlar üçün maye, spirtli vasitələr, lak silmək üçün aseton, həcmi 500 milliqramdan çox olan saç lakı daxildir. Bütün bunlar yanğının baş verməsinə səbəb ola bilər. Buna görə də nəzarət-buraxılış məntəqəsində müsadirə olunur.

**Nə etməli:** düzünə qalsa, səfərdə bunlarsız keçinmək də olar, elə deyilmi? Əgər sevimli saç lakınız olmadan keçinə bilmirsinizsə, onda onun həcmi 150-200 milliqram olan mini variantını seçin: bu qədər həcm tamamilə yol verilən miqdardır.

***7. Patronlar***

Silahla bağlı problemlər həmişə olub və olacaq, onlara həmişə xüsusi nəzarət ediləcək. Patronları yük bölməsində daşımaq yolverilməzdir! Çünki onlar da partlayış təhlükəli əşyalar sayılır və yanğın təhlükəsizliyi qaydalarını pozur.

**Nə etməli:** ov silahı üçün patronları daşımaq mümkündür, amma əl yükündə. Onları möhkəm qutuda qablaşdırmaq lazımdır. Əslində, patrondaş və ya patron darağı yetərincə möhkəm qab sayılmır. Odur ki, onu başqa bir etibarlı konteynerə qoymalısınız. Patronları təyyarədə daşımaq üçün qabaqcadan icazə almağı unutmayın. Əksər aeroportların təhlükəsizlik xidmətləri bunu tələb edirlər.

***8.Xizək sürtküsü və xizək sürtküsünün silinməsi üçün vasitə***

Bu, dağ-xizək kurortlarında fəal istirahəti sevənlər üçün xoşagəlməz xəbərdir. Məsələ bundadır ki, xizəklərin yağlanması üçün vasitələr aeroport əməkdaşlarının müsadirə etdiyi əşyalar sırasındadır, çünki belə sürtkülərin tərkibində alovlanan birləşmələr var. Bu vasitələri nə baqaj bölməsində, nə də əl yükündə daşımaq olar.

**Nə etməli:** «flammable» (tez alışan) sözləri yazılmamış xizək sürtkülərini seçin. Y.Pekkanen belə məsləhət verir: "Sizin baqajda bərk və yanmayan xizək sürtkülərini götürə bilərsiniz, amma bu məhsulun digər növlərini gəldiyiniz yerdə almalı olacaqsınız”.

**Müsadirə olunmuş əşyaları geri qaytarmaq mümkündürmü?**

Aeroportda yoxlama zamanı əlinizdən alınmış əşyaları geri qaytarmaq olar. Y.Pekkanenin sözlərinə görə, əşyalarınız sizindir və geri qayıdanda onları almağa haqqınız var. Nəzarət-buraxılış xidmətinin əməkdaşları müsadirəni rəsmiləşdirən zaman bu barədə sizi məlumatlandıracaqlar.

**Bunu necə etmək olar?** Müsadirə edilmiş əşyanızı qayıdandan sonra azı 30 gün ərzində istənilən vaxt saxlama kamerasından, yaxud xüsusi anbardan götürə bilərsiniz. Əgər avtomobilinizi aeroportun dayanacağında saxlayırsınızsa, onda əşyanızı orada qoya bilərsiniz.

Əlqərəz, bütün bunlar həll olunan məsələlərdir. Sadəcə aeroport əməkdaşlarının işinə anlayışla yanaşın. Axı onlar məhz sizin təhlükəsizliyinizin qayğısına qalırlar!

# Yeni limana eyni anda səkkiz kruiz gəmisi yan ala biləcək



***Türkiyənin ən böyük şəhəri olan İstanbulda kruiz gəmiləri üçün nəhəng liman inşa ediləcək. Şəhərin Yenikapı rayonunda tikiləcək limanının açılışından sonra İstanbul dünya kruiz turizminin mərkəzinə çevriləcək.***

Bu sözləri Türkiyənin nəqliyyat və infrastruktur naziri Cahit Turhan deyib.

Yeni liman barədə məlumat verən nazir bu layihə üçün keçirilən tenderin gələn il tamamlanacağını bildirib.

Liman istifadəyə verildikdən sonra Türkiyənin, o cümlədən İstanbulun kruiz turizminin başlanğıc və son nöqtəsi olacağını deyən nazir layihənin qısa müddətdə tamamlanacağını bildirib.

Yeni limana eyni anda səkkiz kruiz gəmisinin girə biləcəyini qeyd edən C.Turhan, burada ümumi uzunluğu üç min metr olan limanın və ümumi sahəsi 30 min kvadratmetr nəzərdə tutulan gözləmə salonunun inşa ediləcəyini söyləyib.

Onun sözlərinə görə, bu gün dünya turizmində kruiz turizminin payı iki faizdir ki, bu da kruiz turizminin böyük potensial olmasından xəbər verir. Bildirilib ki, 2003-2009-cu illərdə Türkiyədə kruiz turizminin illik artımı orta hesabla 23 faiz təşkil edib.

2009-cu ildəki iqtisadi böhranın kruiz turizmi sahəsinə də mənfi təsir göstərdiyini qeyd edən C.Turhan 2010-cu ildən etibarən bu sahənin inkişaf tempinin bərpa olunduğunu deyib. Bildirilib ki, 2013-cü ildən bu günədək kruiz laynerləri vasitəsilə Türkiyəyə təxminən 2.24 milyon turist gəlib.

Nazir yeni limanın İstanbulun turizm potensialını dünyaya göstərməyə də öz töhfəsini verəcəyini vurğulayıb.

***Günel Məlikova***

# Dünya ticarətinin inkişafı etibarlı və ucuz daşıma vasitəsi olan dəniz nəqliyyatının rolunun daha da artmasını tələb edir

***BMT ekspertləri hesab edirlər ki, dəniz nəqliyyatının atmosferə buraxdığı karbon qazı emissiyaları azaldılmasa, bizi fəlakət gözləyir. BMT-nin saytı xəbər verir ki, dəniz nəqliyyatı ilə daşımalara tələbatın daha da artacağını nəzərə alan ekspertlər parnik qazlarını sıfra endirəcək "yeni inqilabın" zəruriliyindən danışırlar.***

Dəniz nəqliyyatı ilə daşımalar əsrlərboyu ölkələr və qitələr arasında ən mühüm nəqliyyat yollarından biri olub. Dünya ticarətinin inkişafı etibarlı və ucuz daşıma vasitəsi olan dəniz nəqliyyatının rolunun daha da artmasını tələb edir. Onun həcminin 80 faizi dəniz nəqliyyatının payına düşür. BMT-də hesab edirlər ki, gəmilərin "karbon izini" azaltmağın, tədricən isə ləğv etməyin üsullarını tezliklə tapmaq çox əhəmiyyətlidir.



Dünya Bankının məlumatına görə, təkcə bir yük gəmisi atmosferə 50 milyon avtomobil qədər kükürd buraxır. Emissiyaların qlobal həcminin 2,2 faizi dəniz sənayesinin payına düşür ki, bu da ildə 800 milyon tona bərabərdir. İqlim dəyişmələrinin nəticələrinin yumşaldılmasına gəlincə, dəniz nəqliyyatı başqalarından geri qalır.

BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) başçısının müavini İzabel Düran deyir ki, dəniz sənayesində istifadə olunan maye bunker yanacağının karbon izi xüsusilə qorxuludur. Proqnozlara görə, yaxın 20 ildə dəniz ticarətinin həcmi iki dəfə artacaq ki, bu da yanacağın daha ekoloji növlərinə keçilməsinin əhəmiyyətini qabardır.

Bu barədə məlumat UNCTAD-ın dəniz nəqliyyatının vəziyyəti haqqında məruzəsində yer alıb. Məruzə Sinqapurda keçirilən sammitdə təqdim olunub.

Beynəlxalq Dəniz Təşkilatının mətbuat katibi Li Adamson BMT-nin Xəbərlər Xidmətinə müsahibəsində bildirib ki, dövlətlər dəniz nəqliyyatının atmosferə parnik qazları tullantılarının azaldılması və onların sıfra endirilməsi ilə bağlı ilkin strategiyanı hələ 2018-ci ildə qəbul ediblər. Parnik qazları emissiyalarını 2050-ci ilə qədər 2008-ci il səviyyəsindən ən azı iki dəfə azaltmaq nəzərdə tutulur. Bu isə o deməkdir ki, hazırda işlədilən gəmilər tullantıları 80 faiz azaltmalı, yeni gəmilər isə 2030-cu ilə qədər emissiyaları sıfra endirməlidir.

Li Adamson deyib: "Bu strategiya yeni "nəqliyyat" inqilabına gətirib çıxara bilər. Tullantılarının səviyyəsi sıfra bərabər olan gəmilərin kommersiya baxımından cəlbediciliyinə nail olmaq və investisiyaları novator ekoloji texnologiyaların və alternativ aşağı karbonlu yanacaq növlərinin inkişafına yönəltmək lazımdır".

Beynəlxalq Dəniz Təşkilatının nümayəndəsi etiraf edib ki, dəniz sənayesində karbon tullantılarının sıfra endirilməsi daha böyük xərclər tələb edə bilər, lakin ayrı seçim yoxdur. "Mövcud durum tamamilə yolverilməzdir. Özü də təkcə tullantıların iqlim dəyişmələrinə şərait yaratdığına görə deyil. Bu, həm də insanın və ətraf mühitin sağlamlığı məsələsidir ki, onun da maliyyə yükü bütün cəmiyyətin üzərinə düşür", - deyə Li Adamson fikrini tamamlayıb.

# Buzlaqlar sürətlə əriyir

***Qlobal istiləşmə And və Alpdan tutmuş Himalay və Tibetə qədər dünyanın ən yüksək dağ zirvələrində buzlaqların sürətlə əriməsinə gətirib çıxarır. Axı məhz bu buzlaqlar planetin sakinlərinin rifahının, kənd təsərrüfatının, sənayenin və gəmiçiliyin inkişafının asılı olduğu bir çox iri çaylar üçün şirin su mənbəyidir.***



BMT-nin saytı xəbər verir ki, bu və digər məsələləri bu gün Cenevrədə keçiriləcək Dünya Meteorologiya Təşkilatının (DMT) yüksək dağlıq rayonlar üzrə sammitinin iştirakçıları müzakirə edəcəklər. Sammitdə dünyanın müxtəlif ölkələrindən 150-yə yaxın nümayəndə iştirak edəcək. Onlar daha çox sürüşmələrdən, qar uçqunları və daşqınlardan əziyyət çəkən və artıq bu gün şirin su çatışmazlığı ilə qarşılaşan yerli sakinlər və dağlar üçün iqlim dəyişikliyinin fəsadlarını təhlil edəcəklər. Sammit iştirakçıları təhlükəli təbii fəlakətlərin azaldılması yollarını, həm yüksək dağ rayonlarında, həm də aranlıqda qlobal istiləşməyə adaptasiyanı öyrənəcəklər. Yüksək dağlıq regionlarda hidrometeoroloji proqnozların yaxşılaşdırılmasına nail olmaq görüşdə qarşıya qoyulan vəzifələrdən biridir.

Dağlıq regionlar Yer kürəsi səthinin təqribən dörddəbirini təşkil edir. Həmin ərazilərdə 1,1 milyarda yaxın insan yaşayır. Bu regionları çox vaxt "dünyanı su ilə təchiz edən qüllələr" adlandırırlar. Axı dağlarda yerləşən çay hövzələrinin yuxarı axarı bəşəriyyətin yarıdan çoxunu şirin su ilə təmin edir. Bu xüsusda planetimizin "üçüncü qütbü" kimi tanınan Himalay-Hinduquş və Tibet dağlıq rayonları böyük rol oynayırlar.

DMT ekspertləri xatırladır ki, dağlıq kriosfer – buzlaqlar, qar və daimi donuşluq qlobal istiləşmənin mənfi təsirini özündə daha çox hiss edir. Bu isə içməli su təminatında, ərzaq sabitliyində çətinliklər yaradır, çay gəmiçiliyinin işini mürəkkəbləşdirir. Artıq bu gün iqlim dəyişmələrinin fəsadları Everest, Monblan və Kilimancaro kimi məşhur dağ zirvələrində aşkar görünür.

"Buzlaqların əriməsi, buz və qar qatının nazikləşməsi – bütün bunlar iqlim dəyişmələrinin daha çox nəzərəçarpan əlamətləridir. Son iki onillikdə iri buzlaqların 31-də ərimə prosesi sürətlənib", - deyə DMT-nin Baş katibi Petteri Talas bildirib.

DMT ekspertləri xəbərdarlıq edirlər ki, içməli su problemi təkcə yüksək dağlıq regionların əhalisinə deyil, həm də çayın aşağı axınında yerləşən sakinlərə də aid edilir. Onlar, həmçinin qeyd edirlər ki, ölçüsünə görə kiçik olan buzlaqlar istixana qazları tullantılarının yüksək səviyyəsi müşahidə edildiyi halda, məsələn, Avropada, Afrikanın şərq hissəsində və İndoneziyada 2100-cu ilədək özünün indiki çəkisinin 80 faizini itirəcək.

# Filippin dənizinin dibində 1944-cü ildə yaponiyalı kamikadze tərəfindən batırılan təyyarədaşıyan gəmi tapılıb




***"Microsoft" kompaniyasının banilərindən biri mərhum Pol Allen tərəfindən təşkil edilən tədqiqatçılar qrupu Filippin dənizinin dibində 1944-cü ildə yaponiyalı kamikadze tərəfindən 143 insanla birgə batırılan ABŞ-a məxsus ilk təyyarədaşıyan gəmini tapıb.***

Yaponiyanın NHK teleradio kompaniyasının verdiyi xəbərə görə, pilotsuz sualtı aparat vasitəsi ilə 4736 metr dərinlikdə aşkarlanan gəminin görüntüsünü çəkmək mümkün olub.

"St. Lo" adlı aviasiya gəmisi II Dünya müharibəsi zamanı kamikadzenin ilk həmləsi nəticəsində məhv edilmişdi. Yaponiya təyyarəsinin göyərtəyə çırpılması nəticəsində sursat arsenalı partlamış və gəmi batmışdı. İlk əməliyyat uğurla nəticələndiyi üçün Yaponiya komandanlığı kamikadze pilotlar tərəfindən hücumların artırılması barədə göstəriş vermişdi. Bu hücumlar 4 mindən çox amerikalı hərbçinin məhvinə səbəb olmuşdu.

# Əsrarəngiz körpü-muzey

***Təbii sərvətləri ilə zəngin olan və eyni zamanda, sərt iqlimə malik Norveçdə turistlərin ən sevimli məkanlarından biri avtomobillə paytaxt Oslodan bir saatlıq məsafədə yerləşən körpünün üzərindəki incəsənət muzeyidir. Heyrətamiz muzey "BIG-Bjarke Ingels Group"un qeyri-adi layihəsi əsasında yaradılıb.***



CNN telekanalının saytı xəbər verir ki, bu əsrarəngiz muzey Randsvela çayının sahilində yerləşən Kristefos Heykəl Parkının yaxınlığındadır. Çayın üzərindəki Tvist adlanan bu körpü-muzey həm körpü, həm də heykəltəraşlıq muzeyi kimi istifadə olunur. BIG şirkətinin tərəfdaşı və incəsənət direktoru Bjarke Ingels bildirib ki, körpü-muzey bir neçə incəsənət ənənəsinin hibrididir. Muzeyin adı isə məşhur Tvist üslubundan götürülüb. Onun sözlərinə görə, turistlərdən başqa, çayın üzərindən keçən sakinlər də üç qalereyadan ibarət olan muzeyin eksponatları ilə tanış ola bilər.

Muzeyin eksteryeri ikiqat əyri alüminium panellərdən ibarətdir. BIG şirkətinin dizayner qrupu bu panelləri kitab yığını formasında hazırlayıb. Gecələr işıqlandırma sistemi sayəsində onların çayda əks olunan parıldayan görünüşü xüsusi romantik ab-hava yaradır. Muzeyin interyeri isə kosmik dizayn ilə bayırdakı təbiət mənzərəsinin unikal vəhdətini yaradır.

Ətrafdakı Kristefos Heykəl Parkı isə son iki onillikdə Norveçin ən maraqlı mədəniyyət obyekti hesab edilir. Bu heyrətamiz park yapon rəssamı Yayoi Kusama və İslandiya ekoloqu Olafur Eliassonun səyləri ilə salınıb.

Rəsmi açılışı 2019-cu ilin sentyabrında olmuş Tvist körpü-muzeyi Skandinaviya incəsənətinin modern habı sayılır.

# İlk insanlar Zambezi çayının sahilində məskunlaşıblar

***Qədim insanların DNT analizləri göstərib ki, Homo sapiensin ilk nümayəndələri öz xələflərinin Afrikaya yayılmasından 70 min əvvəl Zambezi çayı sahilində məskunlaşıblar. Onların bu qənaətinin yer aldığı elmi məqalə "Nature" jurnalında dərc edilib.***



Yeni Uels Universitetinin genetik alimi, tədqiqatın müəlliflərindən biri Vanessa Heysin sözlərinə görə, ilk iki insan qrupunun bu ərazini təxminən 130 və 100 min ilə əvvəl tərk etdiyi və iqlim dəyişmələri ilə əlaqədar şimal-şərq və cənub-qərb istiqamətinə yollandığı bildirilir. İkinci insan qrupu Afrikanın cənub hissəsində məskunlaşıb.

Bu yaxınlara qədər alimlər hesab edirdilər ki, Homo sapiens təqribən 200 min il əvvəl özlərinin neandertal və kromanyon əcdadlarından ayrıldıqdan sonra Şərqi Afrikada meydana gəlib. Digər tərəfdən, paleontoloqlar iki il əvvəl Mərakeşdə 300 min il yaşı olan müasir tipli insanın qalıqlarını aşkar ediblər. Onlar, həmçinin Afrikanı 130 min il əvvəl tərk edən insanların da sümüklərini tapıblar. Bundan başqa, CAR-da və qitənin şərqində aparılan qazıntılar göstərib ki, insanın əcdadlarının vətəni təkcə Mərakeş deyil, habelə Afrikanın bir neçə regionu ola bilər. Belə ki, arxeoloqlar CAR və Keniyadakı mağaralarda kromanyon mənşəli və 150-200 min il yaşı olan alətlər tapıb, həmçinin bu regionunu ilk insanlarının DNT-lərini analiz ediblər. Bütün bunlar təkamülçülər və antropoloqlar üçün deməyə əsas verir ki, insanlıq Afrikanın hansısa konkret nöqtəsində meydana gəlməyib və bu qitənin müxtəlif yerlərində qədim insan qrupları bir-biri ilə əlaqəli şəkildə yaşayıblar.

Heys və onun həmkarları Afrikanın Kalaxari səhrasında yaşayan koysan adlanan qədim qəbilə və onun qonşularının DNT nümunələrini analiz ediblər. Onları maraqlandıran DNT nüvəsi deyil, hüceyrələrin özünəməxsus enerji stansiyası rolunu oynayan genlərin bir hissəsi olub. Mitoxondrial DNT adlanan bu genlər birbaşa anadan uşağa keçir və çox uzun müddət dəyişməz qalır ki, bu da xalqlar arasında qohumluq əlaqələrini üzə çıxarmağa və insanlığın təkamülü prosesini izləməyə imkan verir. Analizlər nəticəsində məlum olub ki, koysanlar və Afrikanın digər xalqlarının DNT göstəricisi qədim qəbilələrinki ilə bənzərdir. Belə ki, L0 qaploqrupa aid olan insanlar bu ərazilərdə 200 min il əvvəl yaşayıblar. Onların ilk nümayəndələri isə Zambezi çayının sahilində məskunlaşıblar.

Alimlər qeyd ediblər ki, həmin dövrdə Afrikanın bu regionu səhraların ayırdığı vadilərdən ibarət olub. Bu vəziyyət 70 min il əvvəl – Yer kürəsinin öz oxu ətrafında fırlanmasında baş verən dəyişmə ilə yeni hal alıb. İqlim dəyişməsi Homo sapiensin Afrikanın digər regionlarına köçməsi ilə nəticələnib.

# Şeytan üçbucağı

***Bermud üçbucağı Atlantik okeanının şimalında Florida, Bermud adaları və Puerto Rikonu birləşdirən şərti xətlərin əhatə etdiyi üçbucaq ərazidir.***

Möcüzələr və müəmmalarla dolu olan bu yer planetin ən dəhşətli və müdhiş ərazisi hesab olunur. Buraya "Atlantik qəbiristanlığı", "Ölüm və ya Şeytan üçbucağı" da deyilir. Səbəb isə bu ərazidən keçən gəmilərin, təyyarələrin və s. heç bir iz qoymadan yoxa çıxmasıdır.

1502-ci ildə ispan dənizçisi Bermudes Atlantik okeanında gəmilər üçün təhlükəli olan riflər (sualtı qayalar), saylarla (dayazlıqlar) əhatə olunan ada kəşf etdi. Buranı Şeytan adası adlandırdı. Elə onun şərəfinə həmin yer Bermud üçbucağı adlandırıldı.



Bermud üçbucağı zonasında olanların çoxu müşahidə edib ki, burada kompas fərqli yönlənir, yanlış göstərir, yaxud tamamilə sıradan çıxır. Bəzi alimlər Bermud üçbucağı zonasındakı itkiləri dünya okeanının əsas cərəyanlarından biri olan Holfstrimlə bağlayırlar. Suyun altında 9 kilometr dərinliyində olduğundan bu ərazidə batmış hər hansı obyekti tapmaq qeyri-mümkündür.

1840-cı ildə Baham adalarının paytaxtı olan Nassau limanının yaxınlığında Fransanın "Rozali" gəmisi aşkarlanır. Əla vəziyyətdə olan gəmidə hər şey qaydasında idi, bircə gəmi heyəti yoxa çıxmışdı. Bununla da "Bermud üçbucağı"nın qeyri-adi tarixçəsi başlayır. Bu tarixçənin səhifələrində 103 ton su tutumu olan "Mariya Çelesta" gəmisinin başına gələn müəmmalı hadisə (7 noyabr 1872-ci il) xüsusi yer tutur. Aşkar olunan bu gəminin də heyəti yoxa çıxmışdı.

1945-ci ildə ABŞ-a məxsus hərbi təyyarə eskadrilyası ilə bağlı baş vermiş mistik hadisə ən məşhur əhvalatlardan biridir. İçərisində 14 heyət üzvü olan beş bombardmançı təyyarə məşq uçuşu zamanı radarın ekranından yoxa çıxıb. On üç heyət üzvü ilə onların axtarışına yollanan təyyarə də ilim-ilim itib.

Ən məşhur hadisələrdən biri də "Meri Selist" gəmisinin "Bermud üçbucağı"nda yoxa çıxmasıdır. Lakin çox sonralar (1872) "Deja Qrasiya" adlanan ingilis gəmisi təsadüfən "Meri Selist" gəmisinə rast gəlir. Bu hadisədə maraqlısı odur ki, gəmidə heç bir həyat əlaməti olmasa da, buradakı bütün əşyalar, sənədlər, çarpayılar, stol, ərzaq və s. səliqə ilə yerində qalmışdı.

Ötən ilə qədər "Bermud üçbucağı"nda 200-ə yaxın qəza baş verib, 8127 nəfər itkin düşüb. Son 40 ildə isə 100-dən çox təyyarə və gəmi itib.

Sonuncu araşdırmalarda qəzalara səbəb kimi həmin bölgədə hündürlüyü 30 metrə qədər çatan ani dalğaların yaranması göstərilib. Deyilənə görə, dalğalar burulğan forması alaraq həmin an oradan keçən gəmi və təyyarələri özünə çəkməyə başlayır.

***Fərizə ƏHMƏDOVA***

# YARIZARAFAT, YARIGERÇƏK

**Mənə elə gəlir ki, hətta Cəhənnəm də Allahın unutduğu yerdən yaxşı olar.**

**İnsanlıqdan kənara çıxanların bəxti onda gətirir ki, Allah Allahlıqdan kənara çıxmır.**

**Lazım olan şeyləri bilməyənlə lazım olmayan şeyləri bilən arasında çox böyük fərq yoxdur.**

**Çətin adamla işləyəndə ən sadə işləri görmək də çətinləşir.**

**Etinasızlığın doğurduğu faciələr daha böyük olur.**

**Oğul Ananın, Ata qızın duasıdır.**

**Nə qədər az bilsəniz, o qədər çox aldanacaqsınız. Nə qədər çox bilsəniz, müqavimətlə o qədər çox üzləşəcəksiniz.**

**Qudurğanları kasıblara bircə baxışlarından da müəyyən etmək olur.**

**Ucalığın həddi yoxdur. Alçaqlar isə alçala bildikləri qədər alçalırlar.**

**Hər kəs yaxşı şeyi özünə götürürsə, ortaya yaxşı şeyləri kim və necə qoyacaq?**

**Sonu uduzmaq olacaqsa, bütün düşmənlərimizin qabağına tək də çıxa bilərəm.**

**Adamları tanımaq getdikcə çətinləşir. Əksəriyyət bir-iki yaxşı cəhətin arxasında elə məharətlə gizlənir ki...**

**Yerdə sürünənlərin zirvələrə qalxmaq istəyənlərdən bir "üstün" cəhəti olur:yıxılıb əzilmək ehtimalları sıfra bərabərdir.**

**İşlər yaxşı gedən yerdə də, getməyən yerdə də "asıb-kəsmək" üçün qoyun axtarırlar.**

**Bəxtəvərlər Cənnətin, bədbəxtlər Cəhənnəmin olduğuna hamıdan çox inanırlar.**

**Qara günlərimin sayı-hesabı olmayıb. Sənsə yanımda dost axtarırsan.**

**Yarımçıq işlər yarımçıq adamların məhsuludur.**

**Düzlük olmayan yerdə tərbiyədən danışmayın.**

**Ən pis, təhlükəli yalan həqiqətə oxşayan yalanlardır. Çox adam aldanır.**

**Sənsiz yaşaya bilməyəcəyimi demişdim axı... Yaşamaqdır bu?**

**Həyat yalnız ölülər üçün təhlükəli olmur.**

**Dəniz sahildən daha doğma görünür.**

**Arxada qalan gördüklərin və görüb keçdiklərindir. Sən qabağa bax.**

**Mən qışda doğuldum. Ona görə qışı heç vaxt sevmədim?**

**Doğru olan budur ki, indi dünyada çox şey yaxşılığa doğru deyil.**

**Malalamaq üçün laqeyd adamlara ciddi iş tapşırırlar?**

**Həqiqəti arxada belə dilinə gətirməyənlər yalanı düz adamın gözünün içinə necə deyirlər?**

**Bəzilərinin qüsurları çəkilərindən az deyil.**

**Çox adam lüğətindən "ləyaqət" sözünü çoxdan çıxarıb.**

**Sizə qazılan axırıncı quyunun dərinliyi nə qədər olar?**

**Təkcə it insanın dostu olmalıdır?**

**Bəziləri dediklərimin, bəziləri isə demədiklərimin üstünə nə isə qoyurlar.**

**Həyat uda bilməsəydi, bizimlə oyun oynamazdı.**

**Düşünəndə ki, öləndə kiminsə çiyninə yük olacağam, əsla ölmək istəmirəm.**

**Hər kəs dərk etdiyi qədər azaddır.**

**Həqiqət alına, yalan qarına xidmət edir.**

**Haqlı olmayanlar ya ağızlarına, ya da güclərinə güc verirlər.**

**Günün nəbzini tutmayanın nəbzindən bir gün başqası tutur.**

**Ağlamağı doğulan gündən hər kəs bacarır. Gülməyi isə... ya gülməyi öyrənirsən, ya da həyat sənə gülür.**

**Bircə mənim bu Yurda bir can borcum var?**

***Rasif TAHİROV***

## Təmsilçilərimiz akrobatika gimnastikası üzrə Avropa çempionatını uğurla başa vurublar




***İsrailin Holon şəhərində akrobatika gimnastikası üzrə 29-cu Avropa çempionatı keçirilib.***

Azərbaycan Gimnastika Federasiyası xəbər verir ki, yarışın sonuncu günündə təmsilçilərimiz Azərbaycan gimnastikası tarixində ilk dəfə olaraq qitə birinciliyinin gənclər yaş qrupunda qızıl medal qazanıblar. Murad Rəfiyev və Daniel Abbasovdan ibarət cütlük temp hərəkətlərinin finalında 28,600 xalla bütün rəqiblərini geridə qoyaraq Avropa çempionu adına layiq görülüb. Bununla da gimnastlar tam bir medal dəstini əldə ediblər. Belə ki, onlar balans hərəkətlərində bürünc, çoxnövçülükdə isə gümüş medal qazanıblar.

## Cüdoçumuz Avropa birinciliyinin qalibi olub




***Azərbaycan idmançısı Rusiyanın İjevsk şəhərində keçirilən 23 yaşadək cüdoçular arasında Avropa birinciliyinin qalibi adını qazanıb.***

Yarışın ikinci günündə cüdoçumuz Rəşid Məmmədəliyev (73 kq) bütün rəqiblərini məğlub edərək finala vəsiqəni təmin edib. O, həlledici qarşılaşmada Rusiya təmsilçisi Ayub Xacaliyevi məğlub edərək qitə birinciliyinin qalibi olub.

Bu, komandamızın Avropa birinciliyində qazandığı ikinci medaldır. Yarışların birinci günündə 66 kiloqram çəki dərəcəsində mübarizə aparan Nurlan Osmanov gümüş medalı aktivinə yazdırıb.

Avropa birinciliyində 33 ölkədən 235 idmançı (135 kişi, 100 qadın) mübarizə aparıb. Ölkəmiz yarışa 9 cüdoçu ilə qatılıb.

## “Səbail” komandası 11 xalla dördüncü pillədə qərarlaşıb



***Noyabrın 2-də futbol üzrə Azərbaycan Premyer Liqasının 10-cu turunun növbəti oyunu keçirilib.***

“ASCO Arena”da “Səbail” və “Keşlə” komandaları üz-üzə gəliblər. Baş hakim Rəvan Həmzəzadənin idarə etdiyi görüşdə qapılara top vurulmayıb. Bu oyundan sonra aktivində 16 xal olan “Keşlə” üçüncü pillədə qərarlaşıb. “Səbail” komandası isə 11 xalla dördüncüdür.

Premyer Liqanın 10-cu turunun açılış matçında “Neftçi” - “Qarabağ” oyununda da qolsuz heç-heçə qeydə alınmışdı.

Tura noyabrın 3-də keçirilən “Zirə” – “Sumqayıt” və “Qəbələ” – “Sabah” görüşləri ilə yekun vurulub.

Qəbələ şəhər stadionunda eyniadlı komanda “Sabah”ı qəbul edib. Görüş qonaqların qələbəsi ilə yekunlaşıb - 2:1.

Hesabı 43-cü dəqiqədə "Qəbələ"nin hücumçusu Davit Volkov açıb. Lakin fasilədən sonra "Sabah" iki qol vurub. Oyunun 54-cü dəqiqəsində Cavid İmamverdiyev, 73-cü dəqiqədə isə Hendrik Ekşteyn fərqlənib.

Bu, 10-cu turda heç-heçə ilə yekunlaşmayan yeganə oyun olub. "Sabah" səfər qələbəsi sayəsində xallarını 10-a çatdırsa da, yenə 7-ci pillədə qalıb. "Qəbələ" isə 6 xalla sonuncudur.

"Zirə" "Sumqayıt"la 2:2 hesablı heç-heçə edib.

## Qran-Pri turnirinin dördüncü mərhələsində iki şahmatçımız mübarizə aparacaq



***Noyabrın 5-də Hamburqda Beynəlxalq Şahmat Federasiyasının (FIDE) Qran-Pri turnirinin üçüncü mərhələsi start götürüb.***

Dünyanın 16 ən güclü şahmatçısının mübarizə aparacağı turnirdə Azərbaycanı Teymur Rəcəbov təmsil edəcək.

Ümumilikdə 21 şahmatçının gücünü sınadığı bu nüfuzlu yarış dörd mərhələdən ibarətdir. Şahmatçıların hər biri turnirin yalnız üç mərhələsində iştirak edə bilər. Yarışın iyulun 11-24-də Riqada keçirilən bundan əvvəlki mərhələsində Şəhriyar Məmmədyarov qalib adını qazanıb. T.Rəcəbov isə həmin mərhələdə iştirak etməyib. Qran-Pri seriyasının mayda Moskvada keçirilən birinci mərhələsində isə hər iki təmsilçimiz ilk raundda uduzduğu üçün turnirlə vidalaşmalı olub.

Qran-Pri turnirinin dekabrın 10-dan 24-dək Təl-Əvivdə keçiriləcək dördüncü mərhələsində həm Ş.Məmmədyarov, həm də T.Rəcəbov mübarizə aparacaqlar.

Qeyd edək ki, Hamburq Qran-Prisi Teymur Rəcəbovun dünya kuboku turnirindən sonra ilk yarışıdır. Təmsilçimiz Azərbaycanın şahmat tarixində ilk dəfə dünya kuboku turnirinin qalibi olub. O, eyni zamanda, iddiaçılar turnirində birbaşa iştirak hüququ da qazanıb.

Qran-Pri turnirləri Olimpiya sistemi (uduzan çıxır) üzrə keçirilir.

## Ürəktutmanın yaxınlaşmasını göstərən əlamətlər



***Almaniya Ürək Fondunun mütəxəssisləri ürəktutmanın yaxınlaşmasını göstərən əlamətlər barədə məlumat veriblər. “MedikForum”un yazdığına görə, kardioloqlar ürəyin sağlamlığına ayaqlarda ağrı, soyuqdəymə və ya qripdən sonra güclü zəiflik, habelə pilləkən qalxanda təngnəfəslik hiss etdiyiniz hallarda xüsusi diqqət yetirməyi məsləhət görürlər.***

Almaniya həkimləri yerimə zamanı baldırlarda yaranan ağrını infarktın yaxınlaşmasının ən təhlükəli əlaməti hesab edirlər. İnsan uzananda ayaq barmaqları ağrıyırsa, ayağa qalxanda ağrı keçirsə, öz sağlamlığının qayğısına qalmalıdır, çünki bu, ayaqlarda aterosklerozun iki əlamətidir. Kardioloqlar vurğulayırlar ki, ürək çatışmazlığı respirator pozulmalara ağciyər xəstəliklərindən daha çox səbəb olur.

Bundan əlavə, infeksiyadan sonra ayaqlarda şişmə, sinədə təzyiq, azacıq gərginlik keçirən kimi nəbzin qeyri-müntəzəm vurması, yaxud təngnəfəslik hissi əlamətləri müşahidə ediləndə də ürəyi yoxlamaq lazımdır.

## Orqanizmin kalori tələbatı



***Kalori orqanizmdə gedən proseslər üçün əsas enerji mənbəyinin vahidi hesab olunur. Qida maddələrinin tərkibində yağlar, zülallar və karbohidratlar olur. Karbohidratlar daha çox taxıl bitkiləri, quru meyvələr, çörək və şirniyyatların tərkibində olur, sadə və mürəkkəb olmaqla iki yerə bölünür. Mürəkkəb karbohidratlar gec həzm olunduğu üçün onu səhər saatlarında qəbul etmək məsləhətdir.***

Həkim-diyetoloq Ləman Süleymanova bu barədə AZƏRTAC-a bildirib: “Zülallar isə orqanizm üçün tikinti materialı hesab edilir, əsasən ət və ət məhsulları, süd və süd məhsullarında, yumurta, noxud, lobya, mərci və s. kimi paxlalı bitkilərin tərkibində daha çox olur. Müəyyən edilib ki, 1 qram zülalın tərkibində təxminən 5 kkal enerji olur”.

Qida rasionunda günə mürəkkəb karbohidratlarla başlayıb günün axırına doğru zülallarla bitirmək tövsiyə olunur. Günorta saatlarında isə sadə zülalların qəbulu məsləhətdir.

Həkim-diyetoloq kalori barədə danışarkən söyləyib: “Gündəlik kalori qəbulu isə yaş, cins, həyat tərzi, qəbul edilən dərman və xəstəliklərdən asılı olaraq dəyişir. Təxmini hesablamalar zamanı müəyyən olunub ki, orqanizmin tələbatı qadınlarda 1200-1600, kişilərdə 2000-2300, uşaqlarda isə 1300-1600 kalori arasında dəyişə bilər”.

Orqanizmi daha çox enerji ilə təmin edən digər mənbə isə yağlar hesab olunur. Onlara süd və süd məhsulları, quru meyvələr, günəbaxan, balqabaq tumları, zeytun bitkisini aid etmək olar. Kalori hesablamaları yaş, cins və boy nəzərə alınmaqla aparılır.

## Ağır qidalanmadan sonra qaraciyərin bərpası



***Müxtəlif məclis və qonaqlıqlar, yeyib-içmək süfrələri ağızlara dad gətirsə də, ertəsi gün xoşagəlməz nəticələrlə üzləşirik. Səhəri gün başda yaranan ağrı, mədə nahiyəsində narahatlıq hissi əksər hallarda həmin qidalanmanın nəticəsi olur.***

Ağır qidalanmadan sonra qaraciyəri bərpa etmək üçün mövcud üsullardan danışarkən həkim-fitoterapevt Esmira Zeynalova deyib: “Qaraciyərin özünü yeniləmə qabiliyyəti güclüdür. Onun bərpa prosesinə zərərli vərdişlərdən imtina edəndən sonra başlamaq lazımdır. Qida, xüsusilə yağlı yeməklər normadan artıq qəbul ediləndə bağırsaqda külli miqdarda yağ turşuları əmələ gəlir və qanla qaraciyərə daşınır. Qaraciyər hüceyrələrində triqliseridlərin toplanması mübadilə proseslərini pozur və piy distrofiyasının inkişafına səbəb olur.

Acı qidaların qəbulu qaraciyərin işini yaxşılaşdırır. Bəzi acı dada malik göyərtilər qaraciyərdə öd ifrazını artırır və toksiki maddələrin xaric olmasını sürətləndirir. Məsələn, kahı və vəzəri həmin göyərtilərə aiddir. Balqabaq, yerkökü, çuğundur, ağ turp, ənginar, brokkoli, Brüssel ağbaş və gül kələmi kimi tərəvəzlər güclü ödqovucu təsir göstərir”.

Yerfındığından başqa bütün ləpələr, əsasən qoz, fındıq, badam, keşyu, həmçinin balqabaq və günəbaxan tumları qaraciyərin qoruyucularıdır. Onlar əvəzolunmaz essensial fosfolipidlər və antioksidantlarla zəngin olduğuna görə qaraciyər hüceyrələri üçün inşaat materialı rolunu oynayır və sərbəst radikalları neytrallaşdıraraq hepatositlərin zədələnməsinin qarşısını alır. Qaraciyərin təmizlənməsi üçün maqnezium-sulfatlı mineral sular çox faydalı hesab olunur.

Səhər süfrəsində kolbasalı buterbrodları meyvələr və onların şirələri ilə əvəz etməklə qaraciyərin yükünü azaltmaq olar. Alma və armud şirələri daha faydalıdır. Onların tərkibində xolesterini neytrallaşdıran və toksinləri orqanizmdən xaric edən pektin maddələr var. Giləmeyvələrdə qaraciyər üçün vacib olan başqa maddələr, papain və koenzim daha çoxdur. Qaraciyərin müalicəsi üçün yağsız süd məhsulları, bal, qarabaşaq və yulaf yarmaları qəbul edilməlidir. Ən faydalı axşam yeməyi isə kəsmik, suda bişirilmiş yağsız ət və tərəvəzlərdir. Müasir dövrdə ekoloji mühitin çirklənmə dərəcəsini nəzərə alsaq, böyük şəhərlərdə yaşayanların orqanizminə daxil olan toksinləri neytrallaşdırmaq üçün hər gün 700-800 qram çiy meyvə və tərəvəzlə qidalanmaq lazımdır”.

## Masaj ən qədim şəfa üsullarından biridir



***Masaj bəlkə də ən qədim şəfa üsuludur və tarix boyu bütün mədəniyyətlərdə ondan istifadə edilib. Yunan alimi Hippokratın "anatrpsis" adlandırdığı bu üsul sonralar ovuşdurma, əllə müalicə və ovma adlandırılıb. Dilimizdə masaj sözü nisbətən yenidir və ərəbcədən tərcümədə "əllə sığallamaq" mənası verir.***

Qədim Çin, Hindistan və Misir əlyazmalarında masajdan xəstəliklərin qarşısını almaq, sağaltmaq və yaraları yaxşılaşdırmaq məqsədilə istifadə edildiyi öz əksini tapıb. Roma həkimi masaj və məşqlə əlaqədar ən azı on kitab yazıb və onun bir sıra fikirləri indi də öz əhəmiyyətini itirməyib. XVIII və XIX əsrlərdə isveçli Per Henrik Lingin təsiri ilə Avropada masaja rəğbət artıb və onun masaj sistemi Avropa səviyyəsində yayılıb. Ling tibbi gimnastika və masaja böyük əhəmiyyət verib.

Hindistanda analar uşaqlarını masaj edər və sonra da onlardan eyni hərəkətləri valideynləri üzərində təkrar etməsini tələb edərdilər. XIX əsrin axırlarında masajdan məşhur tibbi müalicə üsulu kimi cərrah və həkimlər tez-tez istifadə etməyə başlayıblar. 1894-cü ildə Londonda səkkiz qadının təşəbbüsü ilə Təhsilli Masajçı Dərnəyi yaradılıb və onlar Fiziki Müalicə Dərnəyi adlanan şəfa mərkəzinin qurucuları hesab olunurlar.

Ölkəmizdə masajın özünəməxsus tarixçəsi var, hələ keçmişdə hamamlarda kisə çəkməklə badəni yumşaldır və soyuqdəymə zamanı kürəyi ovmaq və ayaqlamaqla xəstəliyin qarşısını alardılar. O vaxt kortəbii şəkildə aparılan masaj müasir dövrdə daha geniş yayılıb.

Masaj sağlamlığa faydalı təsir göstərir, qan dövranını nizamlayır, əzələləri boşaldır, həzmə kömək edir. Onun faydası yalnız masaj edilən tərəfindən deyil, həm də masajçı tərəfindən də hiss olunur. Əlləri bədən üzərində gəzdirmək həm masaj edən, həm də edilən üçün rahatlaşdırıcı təsir göstərir.

Təbabətdə iki cür masaj aparılır: yüngül və güclü masaj. Yüngül masajın təsiri nəticəsində beyin qabığında tormozlayıcı proseslər qüvvətləndiyindən əməliyyatdan sonra yatmaq meyli oyanır. Güclü masaj nəticəsində isə dəridə hissi sinirlərin oyanması zəifləyir və bir sıra xəstəliklərdə ağrıların azalmasına və tamamilə çəkilməsinə səbəb olur. Yerli və reflektor təsirlər nəticəsində masaj qan və limfa dövranını sürətləndirir, orqanizmin möhkəmlənməsinə səbəb olur.

## Panik atak xəstəlik deyil, əlamətdir

***Həyəcan, qorxu, təşviş, stress və gərginlik kimi anlar hər kəsin qarşılaşa biləcəyi hallardır, amma həmin hallar dəfələrlə təkrarlananda insan psixologiyasına mənfi təsir edir. Hər kəs orta hesabla ömrünün 2,2 ilini əsəb gərginliyi şəraitində keçirir. Bunun nəticəsində isə müasir psixologiyada panik atak adlanan hal yaranır.***

Psixoterapevt Əli Nağıyevin dediyinə görə, panik atak xəstəlik yox, əlamətdir:” Həmin əlamət zamanı birdən-birə əllər soyuyur, ürəkdə döyünmə hissi çoxalır, bədəni soyuq tər basır və ən pisi odur ki, ölüm qorxusu yaranır. Sağlam adamda da panik atak təhlükəsi yarana bilər. Depressiyalı xəstələrdə panik atak təhlükəsi daha çox olur. Panik atakdan şikayət edənlərdə heç bir patologiya aşkar edilmir və çox vaxt həmin nəticələrə inanmayaraq başqa həkimə üz tuturlar. Bununla yanaşı, panik pozuntu adlanan nevroz forması da var, yəni hər an panikaya düşəcəyini gözləyirsən, başqa sözlə, panikadan panika yaranır. Bu, daha çox müxtəlif fobiyalar zamanı baş verir”.

Həkim-psixoterapevtin dediyinə görə, həmin hallar zamanı təşvişə düşmək lazım deyil:“Panik atak baş verəndə sakit və rahat yerdə oturmaq lazımdır. Həmin vaxt başını hündür yerə söykəyib uzanmaq da olar. Yaxın və doğma adamların əhatəsində olmaq daha yaxşıdır. Lakin ən başlıcası əmin olmaq lazımdır ki, bu hal tezliklə ötüb keçəcək. Həmin hal ötüşəndən sonra psixoterapevtə müraciət etmək lazımdır”.

## Arterial təzyiqi aşağı salan 7 ədviyyat



***İnsanın rasionuna daxil olan ərzaq məhsulları arterial təzyiqin göstəricilərinə əhəmiyyətli dərəcədə təsir edir.***

“MedikForum” bu göstəricilərin azaldılmasına gətirib çıxaran ədviyyatlardan bəhs edir.

**Sarımsaq.** Tərkibində antibakterial və antihipertenziv xassəyə malik allisin maddəsi olan sarımsaq qan damarlarını zəiflədir və genişləndirir, nəticədə arterial təzyiq effektli şəkildə aşağı düşür.

**Hil.** Tədqiqatçılar araşdırıblar ki, hilin gündəlik istifadəsi arterial təzyiqin əhəmiyyətli dərəcədə azalmasına kömək edir. Bu ədviyyat antioksidant hesab edilir, həmçinin güclü sidikqovucu xassəyə malikdir.

**Darçın.** Tədqiqatlar göstərir ki, darçından istifadə zamanı sistolik arterial təzyiq təxminən 5,39 mm civə sütunu, diastolik arterial təzyiq isə 2,6 mm civə sütunu azalır. Bu ədviyyatın sıyıqlara və digər xörəklərə qatılması məsləhət görülür.

**Sarıkök.** Onun tərkibindəki kurkumin adlı antioksidant arterial təzyiqi iltihabəleyhinə olan xassələri hesabına effektiv şəkildə aşağı salır. İltihab damarların bərkiməsinə və təzyiqin qalxmasına səbəb olur.

**Zəncəfil.** Tədqiqat göstərib ki, zəncəfil kalsium kanallarını təcrid edərək arterial təzyiqin azalmasına kömək olur. Ədviyyat, həmçinin əzələlərin sıxılmasını azaldır ki, bu da hipertoniya hallarında faydalıdır. Nəhayət zəncəfil damarlarda trombların əmələ gəlməsinin qarşısını alır.

**Kayen bibəri.** Daha çox qırmızı bibər adı ilə tanınan bu bitkinin tərkibində olan kapsaitsin maddəsi arterial təzyiqin azalması işində neyrohormonal sistemlə birgə fəaliyyət göstərən sensor sinir tellərinə təsir edir.

**Qara istiot.** Bu ədviyyat ürək ritminin nəzarət edilməsinə və arterial təzyiqin tənzimlənməsinə yardım edən kaliumla zəngindir. Bundan başqa, qara istiotun tərkibindəki dəmir hipertoniya ilə mübarizədə təsirlidir.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet “Dəniz” qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “Azərbaycan” nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 3790